**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNGİLİS VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA GENDERİN BƏDİİ İFADƏSİNDƏ İDENTİKLİK VƏ FƏRQLİLİK

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Vüsalə Elxan qızı Ağabəyli**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Komparativistika və bədii tərcümə şöbəsi"ndə yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Teymur Həşim oğlu Kərimli** |
| | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Möhsün Zellabdin oğlu Nağısoylu** |
| | filologiya elmləri doktoru, professor<br>**Nailə Məmmədhüseyn qızı Sadıqova** |
| | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən BED 1.31 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, dosent<br>**Həmidə Əhməd qızı Əliyeva** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Genderlə bağlı araşdırılan bütün məsələlər cəmiyyətin problemi olduğu üçün bu problemlərin ən gözəl təzahürü öz əksini bədii ədəbiyyatda tapır. Bədii ədəbiyyat həmişə insan varlığının əsas suallarına cavab axtardığından müasir cəmiyyət üçün çox aktual olan gender məsələlərini də nəzərdən qaçırmır. Bəzi mənbələrdə və demək olar ki, əksər ölkələrdə "gender tədqiqatları" qadın məsələləri üzərində aparılan tədqiqatlar və ya feminist tədqiqatlar kimi qəbul edilir. Əslində isə gender tədqiqatları yalnız qadın problemlərini deyil, cinslərin mühüm xüsusiyyətlərini, cinslər arasındakı münasibətləri, cəmiyyətdə, ədəbiyyatda və siyasətdə cinslərin mövqeyini, qadın hərəkatlarının genişlənərək ədəbi prosesə keçid etməsini əks etdirir. Genderin bədii ədəbiyyatda identikliyi və fərqliliyinin təhlilində, genderin bədii ifadəsində kişi və qadın təfəkkür üslublarını, maskulin və feminin dərketmə paradiqmalarını öyrənmək ayrıca bir əhəmiyyət daşıyır.

Gender ideologiyasını bədii ədəbiyyata gətirən yolun araşdırılması feminizm cərəyanı və feminist nəzəriyyələrə istinad etmədən mümkün deyil. Feminizm cərəyanı və feminist nəzəriyyələr siyasi, ictimai, tarixi, sosial və mədəni amilləri özündə cəmləşdirərək, bunların bütöv şəkildə bədii mətnlərdə tərənnüm olunmasına yol açmış, feminist ədəbi tənqidin və feminist ədəbi kanonun yaranmasına səbəb olmuşdur. Uzun müddət patriarxal cəmiyyətdə yalnız kişilərə məxsus hesab edilən məntiqi, bədii təfəkkür qabiliyyətinin qadında olmamasına dair təsəvvür formalaşmışdır. Kişi məntiqinin hökm sürdüyü cəmiyyətdə qadının kişi təfəkkürü qaydalarını qəbul edərək yamsıladığı və sosiallaşdığı, o cümlədən, gender rolu və stereotiplərini mənimsədiyi düşünülürdü. Feminizm nümayəndələrinin ədəbiyyata marağı və ədəbiyyata gətirdikləri yeni ənənə XX əsrdə feminist ədəbi tənqidin yaranmasına səbəb oldu ki, bu da, ilk növbədə, Qərbi Avropa, ABŞ və Böyük Britaniyada yayıldı. Bunun sayəsində böyük ədəbi mətnlərin klassik kanonu qadın müəllifliyi, qadın mütaliəsi və qadın üslubu baxımından yenidən qiymətləndirilməyə başladı. Bədii ədəbiyyat

dövrün bütün problemlərini özündə əks etdirdiyi üçün feminizmin bədii əsərlərə müraciəti çox vacib idi. Feminizm və feminist ədəbiyyat arasındakı əlaqə feministlərin özləri tərəfindən belə izah edilir: Onların münasibətləri, xüsusilə də, müasir dövrdə, mənəvi zərurətdən irəli gələn etik və sosial ittifaqdır. Təbii ki, insanı öyrənməyə xidmət edən ədəbiyyat və ədəbiyyatşünaslıq bəşəriyyətin yarısını təşkil edən kişi araşdırmaları üzərində qurularsa, yarımçıq qalar. Aydın olur ki, ədəbi prosesə qadınların, yazıçıların və tənqidçilərin fikirləri daxil edilməli və ən azı feminist təhlillər nəzərə alınmalıdır, burada məqsəd, nəinki, liberal səbəblərə görə ədalətli yanaşma sərgiləməkdir, bu, həm də ümumbəşəri humanitar elm olaraq ədəbiyyatın öz təsdiqini tapmasıdır[1]. Elə bu səbəblərə də əsaslanaraq, feminizm ədəbiyyata müraciət edir. Ədəbiyyat və incəsənət hər şeyi insanda əks etdirdiyi üçün, feminizm kimi humanist ideologiya da öz baxış bucağının və fikirlərinin təsdiqini ədəbiyyatda və bədii əsərlərdə axtarır.

XX əsrin 80-ci illərindən qadın tədqiqatları ilə bağlı yaranan suallar feminist nəzəriyyənin probleminə çevrildi. Sosial mühitdə mədəni kontekstdə “konstruktor” kimi formalaşan cins artıq “gender” termini adı altında tədqiq edilməyə başladı. Bununla da, qadın tədqiqatları terminoloji yenilənmənin yeni dövrünə qədəm qoydu. Burada, xüsusi və ən vacib hesab olunan məsələ “gender” terminin neytrallıq daşımasıdır.

Gender tədqiqatları məntiqli şəkildə isbat etdi ki, əslində, məsələ ayrılıqda qadın və kişi fərqi deyil, məsələ məhz cəmiyyətdir, genderdir. Germein Qrir “Qadın xacəsi”[2], “Bütünlüklə qadın”[3] əsərlərində elmə “patriarxal cəmiyyət” termini daxil edərək, aydınlıq gətirir ki, ümumilikdə, qadınların azad olunması, həm də kişilərin azadlığıdır. “Qadın doğulmuş”[4] əsərinin müəllifi Edrien Riçin fikrinə

---

[1] Showalter, E. Towards a Feminist Poetics // The New Feminist Criticism. Essays on Women, Literature and Theory/ / E.Showalter. – N.Y.: Pantheon Books, – 1985. – p.126

[2] Greer, G. The Female Eunuch / G.Greer. – Melburn: Farrar, Straus and Giroux, – 2002. – 400 p.

[3] Greer, G. The Whole Woman / G.Greer. – Melburn: Anchor, – 2000. – 384 p.

[4] Rich, A. Of Woman Born: Motherhood as Experience and Institution / A.Rich. – Baltimore: W.W.Norton Company, – 1995. – 322 p.

görə isə bu cür azadlıq, qadın təfəkkür tərzinin kişi təfəkkür tərzinə inteqrasiyası və reallığın dərki universal dilin yaradılması ilə mümkündür[5].

Bütün bunlar sübut edir ki, əslində, gender tədqiqatlarının əsas qayəsi demokratiyaya bir çağırışdır. Yəni, burada qadın-kişi qarşıdurması, qadın ədəbiyyatı və ya kişi ədəbiyyatı, ya da onlar arasında hər hansı fərqli xüsusiyyətlərin aşkarlanması, sübut olunması mühüm məsələ hesab olunmur. Diqqətdən kənarda qalan, öz hüquqlarını müdafiə edə bilməyən istənilən şəxsin cinsi önəmsənilmədən, rəng və xarakter ayrımı aparılmadan müdafiəsini və birliyini təşkil edən bir cəmiyyətin formalaşması gender tədqiqatlarının əsas tələbidir. Gender tədqiqatları özlüyündə bir sıra elmlərlə əhatə olunur; onun əhatə dairəsi çox genişdir. Fəlsəfə, tarix, politologiya, antropologiya, etnoqrafiya, mədəniyyətşünaslıq, psixologiya, linqvistika, ədəbiyyat və s. özünəməxsus şəkildə gender probleminin tədqiqi ilə məşğul ola bilər. Bizim tədqiqat işimiz isə, əsasən, ədəbiyyat üzrə gender probleminin araşdırılmasına yönəlir. Çünki ədəbiyyat məhz cəmiyyətin, siyasətin və mədəniyyətin bütün detallarının, real hadisələrə əsaslanan fikirlərin obrazlı şəkildə bədii ifadə vasitələri ilə təqdimatıdır. Gender tədqiqatları cinsin birinci – bioloji aspektindən fərqlənərək, onun digər aspektlərinin də araşdırılmasını məqsəd sayır. Son qənaətlərə əsasən, gender tədqiqatları insanın real keyfiyyətlərini, davranış modelini, fəaliyyət növlərini, qadın və kişinin peşəsini sosial-mədəni, psixoloji, bədii aspektdə öyrənir [6].

K.Mario[7] yazır ki, genderologiya artıq ədəbiyyatşünaslıqda və feminizmdə kişilərin mövqeyini hesablamağa və nəzərə almağa çalışır. Beləliklə də, feminist hərəkatın üçüncü dalğasından etibarən feminist nəzəriyyələrdən gender nəzəriyyəsinə keçid baş verdi ki, bu da ən fərqli paradiqma dəyişikliklərindən birini yaratdı. Gender nəzəriyyəsinin tədqiqat obyekti artıq tək qadın deyil, əksinə, hər iki

[5] Abasov, Ə. Genderə giriş. Dərslik / Ə.Abasov, R.Mirzəzadə – Bakı: Adiloğlu MMC, – 2004. – s.19.

[6] Yenə orada, – s.10

[7] Mario, K. An introduction to literary studies / K.Mario. – Routledge, Taylor & Francis e-Library, – 2005. – 165 p.

cinsin qarşılıqlı münasibəti hesab olunmağa başladı. Artıq bir çox kişi tədqiqatçıları da var ki, gender problemləri üzərində işləyir və beləliklə də, maskulinliyi genderşünaslığa birləşdirir. Bu baxımdan da, tədqiqat mövzumuz XXI əsrdə öz aktuallığını qoruyur, ədəbiyyatda gender məsələlərinin daha geniş araşdırılmasına əsas verir.

Feminizmin ən bariz nümayəndələri Simon de Bovuar, Elen Siksu, Eleyn Şoulter, Vircinya Vulf, Marqaret Etvud, Cudit Batler, Edrien Riç, Lyus İriqarey, Sandra Gilbert, Syuzan Qubar və s. yazıçı və tədqiqatçıların genderşünaslığın elmi-nəzəri əsaslarının formalaşmasında xüsusi rolu olmuşdur. Azərbaycanda isə Əli Abasov, Zümrüd Quluzadə, İlham Məmmədzadə, Rəna İbrahimbəyova, Rəna Mirzəzadə, Lalə Mövsümova, Kifayət Ağayeva, Sahibə Qafarova gender tədqiqatlarının müxtəlif istiqamətləri üzrə araşdırmalar aparmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müxtəlif zaman kəsiklərinə əsasən müəyyən etdiyimiz mərhələlər üzrə həm ingilis, həm də Azərbaycan ədəbiyyatında qadın və gender problemlərini əks etdirən bədii əsərlərdir. Tədqiqatın predmeti isə həmin əsərlərdə genderin bədii ifadəsindəki identiklik və fərqliliyin parametrlərini təhlil edərək, ingilis və Azərbaycan ədəbiyyatlarından götürülmüş nümunələr əsasında paralel müqayisələr aparmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi gender nəzəriyyəsinin ədəbi inkişaf tarixini və paralel mərhələlərdə həm ingilis, həm də Azərbaycan ədəbiyyatında genderin reprezentasiyasını araşdırmaqdır. Bu məqsədlə də qarşıya qoyduğumuz vəzifələr aşağıdakılardır:

– Gender ədəbiyyatının inkişaf tarixinin araşdırılması;

– Gender nəzəriyyələrinə keçid mərhələsinin və səbəbinin müəyyənləşdirilməsi;

– Feminist ədəbi tənqidin araşdırılması;

– Bədii təhlillər aparmaq üçün mərhələlərin müəyyənləşdirilməsi;

– Həm ingilis, həm də Azərbaycan ədəbiyyatında gender məsələlərinin ilkin mənzərəsinin təhlil edilməsi;

– Qadınların səsvermə hüququna qədər həm ingilis, həm də Azərbaycan ədəbiyyatında rolunun və genderin identikliyinin

müəyyənləşdirilməsi;

– Həm ingilis, həm də Azərbaycan ədəbiyyatında genderin bədii dərkinin təhlil edilərək müqayisələr aparılması;

– Həm ingilis, həm də Azərbaycan ədəbiyyatında qadın özünüdərk məsələlərinin araşdırılması;

– İngilis ədəbiyyatında ənənəvi gender normalarının pozulması və bədii rekonstruksiyasının təhlil edilməsi;

– Müasir ingilis və Azərbaycan ədəbiyyatında təhkiyə, təhkiyəçi, ideya və məzmunda genderin bədii təsvirindəki identikliyin və fərqliliyin araşdırılması.

**Tədqiqat metodları.** Tədqiqat zamanı hədəfimiz olan ingilis və Azərbaycan ədəbiyyatlarında paralellər aparmaq məqsədilə müqayisəli-tipoloji və müqayisəli-tarixi; gender həm sosial, həm mədəni amil olduğu üçün mədəni-tarixi və struktur-semantik; bədii əsərin məzmunu, ideyası və obrazlarının təhlilində isə təsviri və bioqrafik tədqiqat metodlarından istifadə edilmişdir. Bundan başqa, bədii mətnin təhlili üçün istifadə edilən mətn-məzmun yönümlü yanaşma, antroposentrik yanaşma və koqnitiv yanaşma üsullarından da istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Gender ədəbiyyatı, qadın nəsri və gender tədqiqatlarının formalaşmasına feminist hərəkatlar və nəzəriyyələr təkan olmuşdur.

– İngilis ədəbiyyatında qadın identikliyinin tanınması və qadın azadlığı ideyası ilk olaraq, A.Behnin yaradıcılığında müşahidə olunsa da, ilk məqsədyönlü feminist yazıçı M.Uolstonkraf hesab olunur.

– İngilis ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatının müqayisəsində XII əsrdə Azərbaycan ədəbiyyatında qadın yaradıcılığı və azadfikirliliyin ilkin rüşeymləri meydana çıxır.

– Viktoriya dövrü qadın yazıçılarının qadınların cəmiyyətdəki yeri ilə bağlı mübahisələrə qoşulmadıqları müşahidə olunur.

– Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrünə qədərki mərhələsi qeyri-real qadın obrazlarının bədii təsviri ilə diqqəti cəlb edir. İlk real qadın obrazları, Azərbaycan qadınının hüquqlarının qorunmasına çağırış isə M.F.Axundzadə kimi mütəfəkkirlərin əsərlərində təsvirini tapır.

– XIX əsrin ikinci yarısından başlayaraq yaranan qadın ədəbi

məclislərinin Azərbaycan qadının təhsilində, maariflənməsində və dünyagörüşündə əhəmiyyətli rol oynaması aşkarlanır.

– Feminist hərəkatlardan sonra qadın yazıçıların bədii ədəbiyyatı kişilərin yaratdıqları qadın obrazlarına və kişi dəyərlərinə qarşı çıxan mübarizə meydanına çevirdikləri üzə çıxır.

– C.Məmmədquluzadəni Azərbaycanda, hətta Şərqdə ilk gender ideologiyasının tərənnümçü hesab etmək olar.

– İngilis ədəbiyyatı XX əsrin əvvəlləri qadın ədəbiyyatının meydana çıxması ilə xarakterizə olunur. Artıq qadınların kişilərlə mübarizədə olmadıqları, özlərini kəşf edərək yaradıcılıqla məşğul olmaları, gündəlik təcrübələrini yazmaları və beləliklə də, kişi ədəbiyyatından ayrı bir "qadın ədəbiyyatı" meydana çıxması müəyyən edilir.

– V.Vulfun "Şəxsi otaq" əsəri ingilis ədəbiyyatında feminist manifestlərdən biri hesab edilir. Eynilə, həmin əsərdən bir il öncə yazılmış C.Cabbarlının "Sevil" əsərini Azərbaycan ədəbiyyatının feminist manifesti kimi qiymətləndirmək olar. C.Cabbarlının Azərbaycan qadını üçün təqdim etdiyi alternativ sonrakı dövr ədəbiyyatda qadın azadlığı mövzusuna yeni baxışın formalaşnasına təsir edir.

– Müasir ingilis ədəbiyyatında ənənəvi gender rollarının dəyişməsi, üçüncü cinsin probleminin bədii təsvirləri üzə çıxır.

**Tədqiqatın elmi yeniliyi.** İngilis ədəbiyyatında gender məsələlərinə dair müxtəlif məzmunlu məqalə və tezis şəklində araşdırmalara və ya müəyyən yazıçıların yaradıcılığına dair tədqiqatlara rast gəlmək mümkündür. Azərbaycan ədəbiyyatında gender identikliyi məsələlərinə nisbətən daha az toxunulmuşdur. Azərbaycan elmi-ədəbi mühitində konkret yazıçıların əsərləri əsasında aparılan gender təhlillərinə rast gəlsək də, indiyə qədər bizim təqdim etdiyimiz dissertasiya işində genderin sırf bədii ədəbiyyatda sistemli şəkildə əksi, hətta Azərbaycan ədəbiyyatı ilə paralellərin təqdimi doktorluq dissertasiyası işi həcmində ilk dəfə yazılmışdır. Bu dissertasiya işində Azərbaycanda ilk dəfə olaraq, ədəbiyyatda gender identikliyi belə kompleks formada araşdırılmış, paralel şəkildə hər iki ədəbi kanon gözdən keçirilərək bütövlükdə dövri mənzərə mütəşəkkil formada təqdim edilmiş, hər iki

ədəbiyyatın nümunələri əsasında təhlillər verilmiş, müqayisələr aparılmış və fərqliliklər təqdim edilmişdir. O cümlədən, xaricdə nəşr olunan məqalələrdə də ilk dəfə olaraq, ingilis ədəbiyyatı Azərbaycan ədəbiyyatı ilə gender mövzusu üzrə müqayisə edilmişdir. Paralel müqayisələrlə təhlil təqdim edən dissertasiya işi həm də dünya elminə Azərbaycan ədəbi mühitindəki gender mənzərəsinin tanınması kimi əvəzsiz xidmət göstərə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, bu dissertasiya işində araşdırılan feminist nəzəriyyələri, gender nəzəriyyələri, feminist ədəbi tənqid, feminist ədəbiyyat, qadın ədəbiyyatı, gender linqvistikası, "Queer" nəzəriyyəsi dünya ədəbiyyatı, ingilis və Azərbaycan ədəbiyyatının gender aspektlərinin öyrənilməsi ilə bağlı perspektivlərin formalaşmasında əsaslı rol oynaya bilər. Bundan başqa, ingilis ədəbiyyatında gender identikliyinin Azərbaycan ədəbiyyatına uyğunluğu, oxşarlığı və fərqliliklərinin müəyyənləşməsində dissertasiya işi öz töhfəsini verə bilər.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, dissertasiya işi bir sıra ali təhsil müəssisələrində filologiya, dil və ədəbiyyat fakültələrində həm bakalavr, həm magistr pillələrində ədəbiyyatşünaslıq, genderologiya fənləri ilə tədris edilə, müxtəlif elmi-tədqiqat işlərinin, dərslik və dərs vəsaitlərinin yazılmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin məzmununu əhatə edən əsas müddəa və nəticələr Respublika və Beynəlxalq elmi konfranslardakı məruzələrin tezislər toplusunda, həmçinin Azərbaycan Respublikasında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, eləcə də, xaricdə Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda çap edilmiş məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi

Giriş, hər biri bir neçə paraqrafdan ibarət olmaqla beş fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 12978 işarə, I fəsil 77124 işarə, II fəsil 79862 işarə, III fəsil 79765 işarə, IV fəsil 86910 işarə, V fəsil 78002 işarə, Nəticə 6216 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 420857 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, elmi yeniliyi, habelə, müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır, eləcə də dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında yığcam elmi məlumat verilir.

Dissertasiyanın **"Gender ideologiyasını bədii ədəbiyyata gətirən yol"** adlanan **I fəsli** beş paraqrafdan ibarətdir.

**"Feminizm nəzəriyyələrinin bədii ədəbiyyata təsiri"** adlı ilk paraqrafda Feminist nəzəriyyələrin gender və ədəbiyyatın, bədii ədəbiyyatda gender rolları, gender identikliyi və fərqliliyinin öyrənilməsinə əhəmiyyətli dərəcədə təsiri təhlil və şərh edilir. Feminist nəzəriyyələr genderlə bağlı dinamikanı, tarixən qadınları önəmsəməyən cəmiyyəti tənqid və etiraz etməyə çalışan geniş ideya və hərəkatları əhatə edir. Bu nəzəriyyələr qadınların üzləşdiyi sistem bərabərsizliklərini aradan qaldırmaq ehtiyacından yaranıb və zamanla müxtəlif perspektiv və yanaşmaları əhatə etməklə təkamülləşib. Feminist nəzəriyyənin əsasını genderin ictimai strukturlarının, gender identikliyi və fərqliliyinin, eləcə də, gender münasibətlərinin necə formalaşdığını və bunların da öz növbəsində gender bərabərsizliyini necə davam etdirdiyini araşdırmaq təşkil edir. Feminist nəzəriyyələr bu güc balanssızlıqlarını dekonstruksiya etmək və sosial, siyasi və iqtisadi bərabərliyi müdafiə etmək məqsədi daşıyır.

"İkinci cins" əsərində S.Bovuar bəşər tarixi boyunca kişilər tərəfindən qadının həmişə kişinin "digəri", kişidən sonrakı hesab

olunduğunu, mədəniyyət və sivilizasiya məsələsindən də daim uzaqlaşdırıldığını, ikinci dərəcəli bir varlıq hesab edildiyini qeyd edir. Bunun üçün də o, həmin əsərdə bəzi mütəfəkkirlərin və yazıçıların fikirlərini qınaq obyektinə çevirir. Məsələn, o, Aristotelin *"The female is female by virtue of a certain lack of qualities,"* – (Qadın, elə onda müəyyən keyfiyyətlər çatışmadığı üçün qadındır[*]) fikrini, Tomasın isə "qadın təbiətinin təbii qüsurdan əziyyət çəkdiyini dərk etməliyik" deməklə, qadını "natamam bir insan", "təsadüfi" bir varlıq kimi gördüyünü tənqid edir. Bovuar qeyd edir ki, bəşəriyyət kişidir və kişi qadını qadının özünə görə deyil, kişiyə münasibətlə müəyyənləşdirir; qadın sərbəst varlıq hesab edilmir. *"We should regard women's nature as suffering from natural defectiveness." "Humanity is male, and man defines woman, not in herself, but in relation to himself; she is not considered an autonomous being".*[8]

Feminist nəzəriyyəçilərin qaldırdığı sosial-psixoloji problemlər bədii ədəbiyyatda yer alırdı. M.Etvud "Damazlıq qızın əhvalatı" əsərində təsvir etdiyi Gilead distopik cəmiyyətində kişilərin bütün vasitələri dəyərləndirərək qadınları yalnız reproduktiv funksiyasına görə istifadə etdiyini, oları nəsil artırmaq, uşaqlar dünya gətirmək, onları əmizdirmək məqsədilə, "damazlıq" qızlar seçdiyini, qadın olmanın zülmlərini təsvir edir. Əsərdə qadınlar müxtəlif kateqoriyalara bölünürlər. Uşaq dünyaya gətirə bilən qadınlar – "handmaids" (damazlıqlar) adlanır, onların öz adları yoxdur aid olduqları kişilərin adlarının əvvəlinə "of" prefiksi artırmaqla tanınırlar. Bildiyimiz kimi, *of* ingilis dilində yiyəlik halı bildirən söz önüdür. Beləliklə, Offred, Ofglen və s. kimi damazlıq qızlara verilən adlar Fredinki, Gleninki olaraq, mənsubiyyəti ifadə edir. Əsərdə hamilə qala bilməyən, uşaqsalan, uşaq dünyaya gətirə bilməyən qadınların "Unwomen" (qeyri-qadınlar) adlandırılaraq, koloniyalara sürgün olunub aclığa məhkum olmasından bəhs edilir: *"Unwomen go to the Colonies and starve to death."*[9] Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərində də Zaurun anası Təhminəni illərlə uşaqsız

---

[*] Bu və bundan sonrakı bütün tərcümələr müəllifə aiddir.

[8] Beauvoir, S. The Second Sex / S.Beauvoir. – New York: Random House, – 2010. – p.25.

[9] Atwood M. The Handmaid's tale / M. Atwood . London: Vintage, – 1996. – p.34.

olduğu və doğa bilmədiyi üçün “qarnıboş”, “qısır” adlandırır.[10]

Əslində, feminist nəzəriyyəçilər, feminist ədəbi kanonun formalaşmasına və inkişafına töhfə versələr də, onların öz aralarında pərakəndəlik var idi. Onlar özləri də vahid ideologiya altında birləşə bilməmiş, radikal, liberal, sosialist, psixoanalitik, postmodern və s. kimi qruplaşmışdılar[11].

Azərbaycanda feminizmin nəzəri-ideoloji konsepsiyalarını araşdıran R.Mirzəzadə[12] Qərb-Şərq və Azərbaycan ictimai fikir tarixində gender ideyalarını müqayisəli şəkildə təhlil edərək, Azərbaycan xalqının özünəməxsus gender stereotiplərinin olduğunu ortaya qoymuş və problemin həlli ilə bağlı maraqlı təkliflər, tövsiyələr irəli sürmüşdür.

Feminizm nəzəriyyələri, xüsusilə, XX əsrdən etibarən ingilis ədəbiyyatına dərin təsir göstərdi. Feminist düşüncə inkişaf etdikcə, yazıçılar ənənəvi ədəbi formalara və məzmuna qarşı çıxır, qadın təcrübələrinin təsvir olunmasını və ədəbiyyatda gender rollarının yenidən qiymətləndirilməsini təbliğ edirdilər.

Bu paraqrafda araşdırılan məsələlər və gəlinən qənaətlərin bir qismi “Bədii ədəbiyyatda feminizmin sosial-siyasi ideologiyası”[13] adlı məqalədə öz əksini tapır.

**“Gender bədii ədəbiyyatda sosio-mədəni fenomen kimi”** adlı ikinci paraqrafda qeyd olunur ki, bədii ədəbiyyatda genderin nəzəri anlamında əsas yeri onun sosio-mədəni kateqoriya kimi şərhinə məxsusdur. Gender sosiallaşması gender identikliyinin dərk olunmasında əsas rol oynayır. Cinslər aid olduğu cəmiyyətə uyğun sosial-mədəni obrazları özlərinə nümunə seçir, öncə təlqin və yamsılama prosesi keçir, daha sonra isə həmin obrazlara yiyələnirlər. İnsan fərd olaraq doğulur və gender olaraq doğulduğu cəmiyyətin

---

[10] Anar. Təhminə və Zaur və ya Beşmərtəbəli evin altıncı mərtəbəsi / Anar. –Bakı: Qanun nəşriyyatı, – 2019. – s.301.

[11] Введение в гендерные исследования. Учебное пособие / Под ред. И.Жеребкиной. – Харьков: Спб. – Часть 1. – 2001. – с.233.

[12] Gender: tarix, cəmiyyət, mədəniyyət. Qərb Universiteti Gender Araşdırmaları Mərkəzi. / – Bakı: Qərb Universiteti NPM, – 2002. – s.79.

[13] Ağabəyli, V.E. Bədii ədəbiyyatda feminizmin sosial-siyasi ideologiyası // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №12, – s.230-239.

mədəniyyətinə uyğun formalaşır. Yəni, cins olaraq doğulur, gender olaraq formalaşır. O, hansı cəmiyyətin mədəniyyətini daşıyırsa, onun üçün gender rolları və gender stereotipləri həmin cəmiyyətin sosial-mədəni amillərinin fonunda müəyyənləşir. İstər ingilis, istər Azərbaycan ədəbiyyatında bədii əsərlərdə gender identikliyini təhlil edərkən görürük ki, patriarxal cəmiyyətin daşıyıcıları olan valideynlər qızlarını daha çox himayə altında saxlayır, oğlanlarına daha çox sərbəstlik verir, onları daha çox iqtisadi baxımdan asılı olmamaq istiqamətində tərbiyə edirlər.

Lakin genderin mədəni məzmunundan danışarkən qeyd etmək lazımdır ki, insanların həyatı asimmetrik rollarla mədəni kontekstə yerləşdirib. Belə ki, mədəniyyət, adət-ənənələr müxtəlif zaman kəsiyində dövrün tələblərinə müvafiq olaraq, müxtəlif insanların məzlum və ya sərbəst olması üçün həm imkan yarada bilər, həm qarşı çıxa bilər. Mədəniyyət üçün dəyişməz qalan bir şey yoxdur. Milli-mədəni dəyərlər mədəniyyətin aspektlərini götür-qoy edərək, bu aspektlərdən hansının qalmalı, hansının getməli olduğunu müəyyənləşdirir.[14]

Gender və mədəniyyət haqqında danışarkən, qadın mədəniyyətinin formalaşmasında xüsusi rolu olan radikal feministləri də mütləq qeyd etmək lazımdır. Çünki məhz onların fəaliyyəti nəticəsində qadın incəsənəti, analıq, reproduksiya məsələlərinin inkişafında əsaslı təkan olaraq, kişi imtiyazlarından, kişi asılılığından xilas olmaq üçün qadın klubları, qadın klinikaları yaradıldı. Bunlar isə öz növbəsində, qadın dili, qadın ədəbiyyatı, qadın musiqisi, qadın incəsənəti kimi alternativlərin meydana gəlməsinə və formalaşmasına səbəb oldu.

Bu paraqrafda aparılan araşdırmalar və gəlinən nəticələrin bir qismi "Gender sosiallaşması gender identikliyinin dərk olunma prosesi kimi" "Gender Aspects of Culture" [15] adlı məqalələrdə öz əksini tapmışdır.

---

[14] Gender in Culture, European Institute for Gender Equality / – Luxembourg: Publications Office of the European Union, – 2016. – p.3

[15] Ağabəyli, V.E. Gender sosiallaşması gender identikliyinin dərk olunma prosesi kimi // – Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2020. №2(19), – s.179-187; Aghabayli, V.E. Gender Aspects of Culture // Akdeniz Zirvesi 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Girne: – 17-18 Ekim, – 2020, – p.97-104.

**“Gender linqvistikası”** adlı paraqrafda qadın hərəkatlarının artması, xüsusilə, radikal feministlərin ictimai və bədii fəaliyyəti, yaradıcılığı, əsərləri və apardıqları tədqiqatların XX əsrin ikinci yarısında “gender” anlayışının dilçiliyə də yansıması səbəbi ilə meydana çıxmış “gender linqvistikası” araşdırılır və şərh olunur.

Gender linqvistikası genderin mədəni və sosial münasibətlərinin məhsulu olaraq yaranmış dildir. Dil gender identikliyinin də formalaşmasının özəyidir. Belə ki, dil strukturunu, üslubları, bədii mətni, media mətnlərini araşdırarkən məlum olur ki, müxtəlif dillərdə, cəmiyyətlərdə, mədəniyyətlərdə qadın və kişi anlayışı, qadın və kişi yanaşması, qadın və kişi obrazlarının bədii təsviri, qadın və kişi üslubları bir-birindən fərqli şəkildə təqdim olunur. Bu baxımdan da, gender sosio-mədəni faktor olmaqla yanaşı həm də dil məsələsinə çevrilir. Bunlara kişi-qadın davranışları və nitqlərinin təhlili zamanı meydana çıxan qənaətlər olaraq, dominantlıq, hökmranlıq, çatışmazlıq, fərqlilik və identikliyin şərhi məsələlərini də aid etmək olar.

Gender tədqiqatları postmodernist fəlsəfə ideyalarının inkişaf dövründə meydana gəldi. Çünki postmodernistlər yalnız dil konsepsiyasını reallıq hesab edirdilər: Bizim reallıq hesab etdiyimiz hər şey əslində, sosial və linqvistik baxımdan formalaşmış fenomen və tədqiq etdiyimiz dil sisteminin nəticəsidir[16].

Qadınların sosial və psixoloji problemlərini araşdıran D.N.Maltz və R.A.Borker[17] qadın və kişi münasibətlərindəki fərqləri müxtəlif aspektlərdən analiz etmək üçün kiçik yaşlarından oğlan və qız uşaqlarının oyun zamanı nitqlərini təhlil edərək belə nəticəyə gəlirlər ki, oğlanların üslubu qadınların nitq xüsusiyyətlərindən çox fərqlənir. Belə ki, oğlanların nitqində dominantlıq, inadkarlıq, özlərinə diqqət çəkmə və s. kimi nüanslar varkən, qızlar ünsiyyət zamanı daha yumşaq davranır və istifadə etdikləri sözlər vasitəsilə daha çox yaxınlıq, nəvaziş göstərməyə və bərabərlik münasibətlərini

---

16 Кирилина, А.В. Тендер: лингвистические аспекты / А.В.Кирилина. – М: Ин-т социологии РАН, – 1999. – с.25

17 Maltz, D.N. A Cultural Approach to Male-Female Miscommunication. // In L.Monaghan, & J.E.Goodman (Eds.). A Cultural Approach to Interpersonal Communication: Essential Readings / D.N.Maltz, R.A.Borker. – Blackwell Publishing, – 1982. – p.168-185

qorumağa can atırlar.

XX əsrin 90-cı illərində tədqiqatçılar artıq fərqli cinslərin nitqindəki gizli uyğunsuzluqları araşdırmağa başlayır. D.Tannen[18] terminoloji lüğətin istifadəsindəki fərqlilikləri göstərərək, kişi və qadın arasındakı ünsiyyəti mədəniyyətlərarası kommunikasiya problemi kimi təsvir edir.

Bədii ədəbiyyatda gender linqvistikasının təzahürünə nəzər saldıqda aydın olur ki, qadınların fiziki parametrlərinin təsviri üçün kişi parametrləri ilə müqayisədə daha çox kiçildən, zərifləşdirən pozisiyalar nəzərdə tutulur. Məsələn, qadın – incə, balaca, gül, çiçək, inci, ulduz, ay, günəş, kəpənək, mirvari, şəlalə və s. sözlər və təbiət hadisələri ilə assosiasiya olunur. Kişilər – pəhləvan, cəsur, sıldırımlı qaya, polad, ildırım, vulkan və s. sözlər və təbiət hadisələri ilə təsvir olunur. *"We were precious flowers that had to be kept safely inside glass houses, or else we would be ambushed."*[19] – (Biz şüşənin içində qorunacaq dəyərli çiçəklər idik, yoxsa tələyə düşərdik.)

Bu paraqrafda aparılan təhlillər və qənaətlər öz əksini "Linguacultural analysis of Gender in Fiction" adlı məqalə və "Linqvokulturologiya və Gender məsələləri" [20] adlı dərs vəsaitində tapmışdır.

**"Dini gender stereotiplərinin bədii ədəbiyyatda inikası"** adlanan paraqrafda gender, din və ədəbiyyat arasındakı qarşılıqlı əlaqə, dini inancların və təcrübələrin bədii mətnlərdə gender rollarının təsvirinə təsiri nəzərdən keçirilir. İstər ingilisdilli bədii ədəbiyyatda, istərsə də, Azərbaycan ədəbiyyatında genderlərarası münasibətdə təsvir olunan dini nüansları təhlil etməyə çalışarkən aydın olur ki, bənzər problemlərə kişilər tərəfindən yanaşma həm islam, həm xristian, həm də ivrit dininin hakim olduğu cəmiyyətlərdə, demək olar ki, oxşar şəkildədir. Bədii ədəbiyyat həm də dini gender normalarını sorğulamaq və tənqid etmək üçün bir

---

[18] Tannen, D. You Just Don't Understand: Women and Men in Conversation. / D.Tannen. – New York, William Morrow, – 1990. – 342 p.

[19] Atwood, M. The Testaments. / M.Atwood. – London: Vintage, – 2019. – p.17

[20] Aghabayli, V.E. Linguacultural Analysis of Gender in Fiction // – İstanbul: Türk Dünyası Çalışmaları, Paradigma Akademi, – 2023. – p.163-181; Ağabəyli V.E. Linqvokulturologiya və gender məsələləri. Dərs vəsaiti. / V.E.Ağabəyli – Bakı: Zəngəzurda, – 2023. – 76 s.

meydandır. Feminist yazıçılar əsərlərində alternativ perspektivlər təqdim etməklə, dini cəhətdən təyin olunmuş gender rollarına müqavimət göstərən obrazları təsvir edir, genderlə bağlı ənənəvi dini baxışlara etiraz bildirirlər.

İnsanlar bəşəriyyəti, kainatı kişi cinsində hesab etdikləri kimi, Allahı da kişi cinsində təsvir edirlər. M.Etvud yazır ki, kişilər özləri qurduğu cəmiyyəti özləri rahat idarə etmək üçün Allahı da, dini də, istədikləri kimi təqdim edirlər. Din adı altında xüsusi seçilmiş qaydalar insanları, xüsusilə də, qadınları itaətdə saxlamağın və idarə etməyin ən yaxşı yoludur. Qızların itaətsizliyi Allaha qarşı çıxmaqla eyni hesab olunur. Əslində kişi və qadın Allahın yer üzündəki simasıdır. Lakin kişilər çalışır ki, qadınlar Allahı kişi cinsində təsəvvür etsin: *"They want God to be only one thing", It says in the Bible we're in God's image, male and female both. But it's holy. God isn't what they say."*[21] – (Onlar Allahın tək bir şey olmasını istəyirlər. Bibliyada deyilir ki, biz kişi və qadın olaraq Allahın surətiyik. Allah onların dedikləri kimi deyil.)

Ümumilikdə, bədii ədəbiyyatda dini gender stereotiplərinin təhlili gender və dinlə bağlı cəmiyyətin münasibətinin bədii təsvirini əhatə edir. Bu təsvirlər oxucunu genderlərarası standart kimi qəbul edilmiş dini rolları yenidən nəzərdən keçirmək üçün düşündürür.

Bu paraqrafdan alınmış nəticələr "Din və Gender məsələlərinin bədii ədəbiyyatda əksi"[22] adlı məqalədə öz əksini tapmışdır.

I fəslin **"Gender və ədəbiyyat"** adlanan sonuncu paraqrafında ədəbiyyatın müasir cəmiyyəti və insanı düşündürən son dərəcədə aktual və maraqlı olan gender məsələlərindən də yan keçmədiyi, "qadın üslubu" və ya "qadın dəsti-xəttinin" olub-olmaması, kişilərin dominantlıq etdiyi ədəbiyyat nəzəriyyələrinə, xüsusilə də narratologiyaya yenidən baxılması kimi məsələlər araşdırılır.

E.Siksu hesab edir ki, yazı, mətn, yazıçılıq qabiliyyəti siyasi və iqtisadi sistemlərdən, problemlərdən qurtulmağın mümkün olduğu bir məkan, bir sahədir. Qadınlar öz üslubları ilə yazıda özlərini ifadə etmək üçün müstəsna imkanlara sahibdirlər, beləliklə, qadın öz

---

[21] Atwood, M. The Testaments. / M.Atwood. – London: Vintage, – 2019. – p.289

[22] Ağabəyli, V.E. Din və Gender məsələlərinin bədii ədəbiyyatda əksi // Bakı: Elmi əsərlər, Bakı Qızlar Universiteti, – 2023. c. 16, №3 (55), – s.153-160.

biseksuallığını ört-basdır etmir, inkar etmir, əksinə özündə olan başqa bir kimliyi, başqa varlığı da tanıyır, qəbul edir[23]. Bədii ədəbiyyat yazıçı qadına cəmiyyətdə, iqtisadiyyatda verilməyən sərbəstliyi, azadlığı verir. Qadın yazıçı düşüncələrini canlandırmaqda, obrazlara istədiyi çaları qatmaqda müstəqil olduğu üçün qadın ədəbiyyatı qadına müstəsna imkanlar sərgiləyən bir sahədir.

L.İriqareyin fikrincə, qadın maskulin diskursundan kənarda danışa bilmir, elə buna görə də, qadının maskulin diskursa bir az femininlik qatmaqla onu imitasiya etmək, təqlid etmək yolu qalır. Bu da o deməkdir ki, qadın həmişə maskulin diskursda *"başqadır, ikincidir, digəridir"*[24]. Müasir qadın nəsrinin səyi isə qadının əsl simasının əks olunmadığı "güzgünü" sındırmağa, kişi mədəni ənənələri ilə yaradılmış qadınsallıq mifini dağıtmağa yönəlmişdir[25]. Bu məsələ də, artıq müəyyən spesifik xüsusiyyətləri ilə səciyyələnən qadın mətnlərinin öyrənilməsinin tədqiqat obyektinə daxil edilməsi və bununla əlaqədar olaraq ədəbi nəzəriyyələrə yenidən baxılmasının zəruriliyini şərtləndirir.

S.Qafarova[26] qeyd edir ki, bədii əsərdə gender aspektini ifadə etməyin müxtəlif üsulları mövcuddur. Bütün ədəbi əsərlər yazıçının nəzər-nöqtəsindən verilmiş həyatı öz əsaslarında əks etdirir, onun daxili həyatının hadisəsi sayılır. Yazıçı həyatın müəyyən tərəfini və onunla bağlı insan xarakterləri təsvir etmək üçün seçir. Hər şey ideyadan asılıdır. Bu paraqrafda araşdırılan məsələlər və gəlinən nəticələrin bir qismi "Bədii mətn genderin sosioloji və psixoloji vəziyyətinin reprezentasiyası kimi", "Bədii ədəbiyyatda qadın və kişi üslublarının identikliyi və fərqi" [27] adlı məqalələrdə çap olunmuşdur.

---

[23] Cixous, H. The Newly Born Woman / H.Cixous, C.Clement. – Manchester: Manchester University Press, – 1987. – p.85-86

[24] Irigaray, L. This Sex Which Is Not One / L.Irigaray. – Ithaca: Cornell Univ. Press, – 1985. –p.76

[25] Киляков, В. О женском в современной литературе // Лит. Учеба, – 1996. №4, – с.108-110

[26] Qafarova, S. Gender və Filologiya. Dərs vəsaiti / S.Qafarova. – Bakı: Mütərcim, – 2009. – s.67

[27]Ağabəyli, V.E. Bədii mətn genderin sosioloji və psixoloji vəziyyətinin reprezentasiyası kimi // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi konfrans, – Bakı: – 30 noyabr, – 2020, – s. 47-49; Ağabəyli, V.E. Bədii ədəbiyyatda qadın və kişi üslublarının identikliyi və fərqi // Bakı: Gənc Tədqiqatçı elmi-praktiki jurnal, – 2021. c. 7, №1, – s.195-201.

Beləliklə, I fəsildə gender məsələlərinin bədii ədəbiyyatda təsvirinə gətirən yol araşdırılaraq, gender sosio-mədəni, dini, linqvistik və ədəbi fenomen kimi tədqiq edilmiş, gender və ədəbiyyat əlaqələri üzə çıxarılmışdır. Məlum olmuşdur ki, gender identikliyi, ilk növbədə, sosial mühitdə, mədəni sferada öz əksini tapsa da, feminizm nəzəriyyələri, qadın hərəkatları qadın dili, qadın ədəbiyyatının formalaşmasına təkan olmuşdur. Bioloji varlıq olaraq doğulan cins, ictimai mühitdə və aid olduğu cəmiyyətin mədəniyyətinə uyğun olaraq gender kimi formalaşır. Bədii ədəbiyyat isə, dövrün bütün ictimai-sosial, mədəni münasibətlərini əks etdirən geniş məkan olduğundan, gender probleminin bədii mənzərəsini tərənnüm edir.

**"Ədəbiyyatşünaslıqda feminist baxış"** adlanan **II fəsil** dörd paraqrafdan ibarətdir. II fəslin **"Feminist ədəbiyyat kanonu"** adlı birinci paraqrafı özü də **"Feminist ədəbi nəzəriyyədən Gender nəzəriyyəsinə keçid"** və **"Feminist ədəbi tənqid"** adlı iki bölməyə ayrılır. Bu paraqrafda şərh olunur ki, ədəbiyyatın tarixə şahidlik etməkdən əlavə, ona necə təsir etdiyini və müdaxilələr edə bilmə gücünün ən önəmli sübutu feminist ədəbiyyatı tarixidir. Feminist ədəbi nəzəriyyə belə bir fərziyyə irəli sürür ki, "gender fərqi" ədəbi tənqiddə etinasız yanaşılmış və məhəl qoyulmamış bir aspektdir. Elə buna görə də, feminist ədəbi nəzəriyyəçilər iddia edirlər ki, ədəbi tənqidin ənənəvi sahələrini gender nöqteyi-nəzərindən yenidən nəzərdən keçirmək lazımdır. Feminist tənqidçilər hesab edir ki, XX əsrin əvvəllərinə qədər qadın obrazı kişi yazıçılar tərəfindən müəyyən edilmiş qaydalar və çərçivəyə uyğunlaşdırılırdı, ya da tamamilə, ədəbiyyatdan kənarda qalırdı. Yəni onlar ədəbiyyatda qadınlar və ya femininliyin yanlış təqdim olunduğunu düşünürdülər. Feminist tənqidçi E.Şoulter[28] qadın ədəbiyyatını üç dövrə bölür:

1. 1840-1880-ci illər –"Feminine Phase" (zənən, qadınsayağı) adlandırılan bu dövrdə qadın yazıçılar "qadından yazıçı olmaz" fikrindən çəkindikləri üçün kişi təxəllüsləri ilə kişi üslubuna bənzər yazaraq kişi dəyərlərinə sadiq qalmağa çalışır və qadınların cəmiyyətdəki yeri ilə bağlı mübarizəyə girmirdilər. Bronte bacıları,

---

[28] Showalter, E. Towards a Feminist Poetics // The New Feminist Criticism. Essays on Women, Literature and Theory / E.Showalter. – N.Y.: Pantheon Books, – 1985. – p.129.

C.Eliot, E.Qaskel və başqaları bu qrupa aid edilir.

2. 1880-1920-ci illər – "Feminist Phase" (feminist dövr) adlandırılan bu mərhələ feminist hərəkatlarının güclənməsi ilə artıq qadınlar kişi psevdonimlərini bir kənara atıb məqsədli və şüurlu şəkildə kişi ədəbiyyatına qarşı çıxaraq, onun çərçivələrini qırmağa çalışan bir dil və üslub yaratdıqları dövr hesab olunur. Lakin onlar kişilərin yaratdıqları qadın obrazlarına və kişi dəyərlərinə qarşı çıxıb mübarizə aparsalar da, öz həyatları üçün də başqa bir alternativ təqdim edə bilməmişdilər. Bu dönəmin ən məşhur simaları Ş.P.Qilman, K.Çopin hesab olunur.

3. 1920 – və sonrakı illər – "Female Phase" (Qadın Dövrü) adlandırılan bu mərhələdə artıq qadınlar mübarizədə deyil, onlar özlərini kəşf edir, gündəlik təcrübələrini yazmağa başlayırlar. Beləliklə də, kişi ədəbiyyatından ayrı bir "qadın ədəbiyyatı" meydana çıxdı. Bu dövrün qadın yazıçıları yeni qadınsayağı dil, üslub formalaşdırmağa nail oldu. Feminist ədəbiyyat da bu dönəmdə çiçəklənməyə başlamışdı. V.Vulf, E.Şoulter, S.Bovuar, S.Gilbert və S.Qubar bu dövrün önəmli nümayəndələri idi.

Təbii ki, E.Şoulterin bu bölgüsü də kifayət etmir, onun "Qadın dövrü" ilə bağlı dediklərini 1920-1980-ci illər arasında keçərli hesab etmək olsa da, feminizmin üçüncü dalğası və 90-cı illərin ortasından ədəbiyyat üzərində də təsirini artıran "queer" nəzəriyyəsi hal-hazırkı mərhələdə qadın yazısını bu kateqoriyaya aid edə bilmir.

Məhz feminist ədəbiyyatın və tənqidçilərin fəaliyyəti nəticəsində müasir dövrdə tədqiqatlar artıq gender tədqiqatları adı altında formalaşmışdır. Müasir dövrün gender tədqiqatları ədəbiyyatda qadın obrazlarının, qadın problemlərinin qoyuluşunu və qadın xüsusiyyətlərini müxtəlif istiqamətdən təhlil etməyə imkan verir.

Bu paraqrafda aparılan təhlillər və əldə edilən nəticələrin bir qismi "Feminist ədəbi tənqid"[29] adlı nəşrdə öz əksini tapmışdır.

**"İngilis ədəbiyyatında gender identikliyinin ilkin mənzərəsi"** adlı ikinci paraqrafda ingilis ədəbi kanonunun

[29] Ağabəyli, V.E. Feminist ədəbi tənqid // "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" adlı Beynəlxalq elmi konfransı, – Bakı: – dekabr, – 2020, – s. 150-152.

formalaşdığı dövrdən başlayaraq, genderin bədii ifadəsindəki identiklik və fərqlilik, norman işğalından sonra hüquqlarını itirən və XIX əsrin sonlarına qədər bərpa edə bilməyən ingilis qadınlarının həyatının bədii təsviri araşdırılır. C.Çoserin[30] "Kenterberi nağılları" əsərində "Hamam qadınının nağılı"nın (1386) ideyasını gender tədqiqatları və feminist meyillər baxımından dəyərləndirsək, deməli, hələ XIV əsrdən qadın onda olmayan güc üçün – kişinin üzərində hakimiyyət üçün mübarizə aparıb. Lakin bu ideyanın digər tərəfi də var ki, vəzifə və səlahiyyətləri məhdudlaşdırılan hər bir qadın kişi üçün ifritəyə, əksinə, layiq olduğu səlahiyyəti əldə edən qadın isə mələyə çevrilə bilər və kişini ən xoşbəxt insan edə bilər. U.Şekspirin 1590-1592-ci illərdə yazdığı "Deyingən qadının əhliləşdirilməsi" əsərində isə qadının dəyərinin aşağı təqdim olunması, bütövlükdə bir sinif şəklində kişilərə tabeliyinin təbliğ olunması və mal-mülk kimi təsviri feminist ədəbi tənqidçilərin hədəfinə çevrilmişdi[31].

İngiltərənin ilk peşəkar qadın yazıçısı hesab edilən A.Behn[32] XVII əsrdə yazdığı "Orunko və ya kral kölə", "Zənci qadının macərası" adlı əsərlərində həm evlilikdə, həm də köləlikdə qadınlara qarşı olan münasibəti tənqid edir, qadın və kişi cinsi arasında olan fərqlilikləri və bərabərlikləri təhlil edir, gender problemi çərçivəsində irqçiliyə, köləlik, zina, qohumluq və s. məsələlərə diqqət çəkir. V.Vulf[33] Behnin qadın müəllifliyinin böyük əhəmiyyət daşıdığını qeyd edərək, onu qadın yazıçıların simvolik fiquru hesab edir. Behnin azad iradəsi və cəsarəti qadınlara örnək oldu ki, yazıçılıqla pul qazanmaq olar[34]. Beləliklə, XVIII əsrin əvvəllərindən etibarən

---

[30] Chaucer, G. Canterbury tales: [Electronic resource] / G.Chaucer. – Cambridge University Library, London, Tubner & CO, – 1868-1879. – 786 p. URL: http://dbooks.bodleian.ox.ac.uk/books/PDFs/300054587.pdf

[31] Bean, John C. Comic Structure and the Humanizing of Kate in The Taming of the Shrew. The Woman's Part; Feminist Criticism of Shakespeare / John C. Bean. – Urbana: University of Illinois, – 1980. – p.65-78; Kehler, D. Echoes of the Induction in The Taming of the Shrew. // Renaissance Papers, – 1986. – p.31-42.

[32] Behn, Aphra. Oroonoko and Other Writings / Behn, Aphra. Ed. Paul Salzman. – Oxford: Oxford University Press, – 2009. – 320 p.

[33] Woolf, V. A Room of One's Own / V.Woolf. – Wordsworth Editions, Ware, Hertfordshire, – 2012. – p.74

[34] Salzman, P. Introduction. Oroonoko and Other Writings. By Aphra Behn // Ed. Paul Salzman. – Oxford: Oxford University Press, – 2009. – p. ıx-xxıv.

qadınlar tərcümələr etməklə, Şekspir barədə esselər yazmaqla, adları qeyd olunmasa belə, sadə yazılar yazıb satmaqla həm büdcələrini artırmağa nail oldular, həm də onlarda nəzərəçarpan zehni fəallıq formalaşdı. Bundan sonra artıq növbəti əsrdə orta təbəqə qadınları C.Ostin, Bronte barıları, C.Eliot romanlar yaza bildi.

XVIII əsrdə qadınların problemlərinin işıqlandırılmasında D.Defonun böyük əməyi olmuşdur. O, qadınları kateqoriyaya ayırmadan, varlı-kasıb, evli-subay kimi bölgülər aparmadan onların ümumi şəkildə hüquqi məhdudiyyətlərini, problemlərini öz novellalarında, didaktik əsərlərində, publisistik məqalələrində əks etdirirdi. Onun qadınlara məsləhəti, onların təhsilə, maariflənməyə çağırışı, ailə həyatında ərləri tərəfindən alçaldılan, hər hansı səhvlərinə görə təhqiramiz şəkildə cəzalandırılan qadınların problemləri, evlilik, boşanma, evlilikdən kənar yaşanan eşq münasibətləri, arzuolunmaz uşaq, fahişəlik, ikiarvadlılıq, analıq və s. qadın problemlərini əks etdirən "Moll Flanders", "Roksana", "Qadınların təhsili", "İcmal" kimi əsərləri gender tədqiqatları baxımından önəm daşıyır.

Bu paraqrafdakı təhlillər və alınan qənaətlərin bir qismi "Early Gender Representations in English Literature"[35] adlı məqalədə öz əksini tapır.

**"İngilis ədəbiyyatında qadın haqlarının müdafiəsinə çağırış"** adlı üçüncü paraqrafda İngiltərə ədəbiyyat tarixində ilk məntiqli və məqsədyönlü feminist əsər M.Uolstonkraftın "Qadın haqlarına bəraət" (1792) əsərinin əsas ideyası, feminist utopiyasının başlanğıcı hesab olunan M.Kavendiş və S.Skotun yaradıcılığı, C.Ostinin əsərlərində gender məsələləri təhlil və şərh olunur.

"Qadın haqlarına bəraət" əsəri Fransa inqilabına münasibət olaraq yazılsa da, Uolstonkraftın diqqəti köklü dəyişikliklərə məruz qalan qadın hüquqları, xüsusən də, gender məsələlərinə yönəlmişdir: "*It is time to effect a revolution in female manners, time to restore to them their lost dignity and make them, as a part of the human*

[35] Aghabayli, V.E. Early gender representations in English literature // – Baku: Ancient Land, International online scientific journal, – 2023. vol.5, Issue: 3, – p.29-34.

*species, labour by reforming themselves to reform the world."*[36]– (Qadın davranışlarında bir inqilabın, itirilmiş ləyaqətlərinin bərpasının və özlərini insan hesab edərək yeniləməyə çalışmaqla dünyanı yeniləmələrinin vaxtı gəlib çatdı.) O, uşaqların təhsil almasının vacibliyini yazsa da, bu əsərdə qadınların təhsil almasının həm uşaqların, həm də ailənin və evliliyin daha da güclü olmasına, uşaqların stabil həyat tərzi və təhsilində əhəmiyyətli rol oynadığına dəlalət edəcəyini vurğulayır, qadınların təhsil yolu ilə azadlığa qovuşacağına inanırdı.

İngilis ədəbiyyatında XVI əsrdən başlayaraq yaranan utopiya ədəbiyyatı elə ilk dövrdən qadın probleminə də toxunur. M.Kavendişin "Alovlu dünya"[37] və S.Skotun "Millenium zalı"[38] ilk feminist utopiya əsərləri hesab edilə bilər. Bu əsərlər qadının cəmiyyətdəki mövqeyini şikəst durumu kimi nəzərdən keçirir. Dövrün qadına verdiyi yeganə azadlıq odur ki, qadın xəyal qurmaqda azaddır. Əsərlərin əsas ideyası qadınların cəmiyyətdəki yeri və mövqeyi, əxlaqi dəyərlər və müəyyən dərəcədə qadının təhsili məsələsidir. İngilis ədəbiyyatında bu əsərlərin yeni bir istiqamət yaratdığını desək yanılmarıq.

C.Ostin XIX əsrin əvvəllərində yazıb-yaratsa da, onun əsərlərində Viktoriya ədəbiyyatına keçid duyulur. Ostin gender məsələlərini qabarıq şəkildə sırf feminist nöqteyi-nəzərdən fərqləndirməsə də, onun əsərlərində qadın və kişi obrazlarının təqdimatı, cəmiyyətin düşüncə və cinslərə yanaşma tərzi, kişi cinsinə verilən üstünlüklər və imtiyazlar, qadın cinsi üçün qəbul edilmiş standartları müşahidə etmək mümkündür.

C.Ostinin "Qürur və qərəz" (1813) əsərindəki Elizabet obrazı digər qadınlardan xarakter etibarı ilə fərqlənir. Ostin əsərdə iki cür qadın tipini təqdim edir: sərbəst və itaətkar qadın. Elizabet sərbəst, Şarlotte isə itaətkar qadındır. Elizabet Ostinin yaratdığı ən güclü qadın surəti olaraq, o dövrünün qadınlarından, öz anasından,

---

[36] Wollstonecraft, M. Vindication of the Rights of Woman / M.Wollstonecraft. Ed. Miriam Brody. – London: Penguin, – 1985. – p.132.

[37] Cavendish, M. The Description of a New World, Called the Blazing-World: [Electronic resource] 18.04.2016. URL: http://www.gutenberg.org/ebooks/51783

[38] Scott, S. A description of Millenium Hall: [Electronic resource]. 13.07.2008. URL: http://www.gutenberg.org/dirs/2/6/0/5/26050.

bacılarından fərqlidir. Onlar kimi gecə-gündüz evlilik haqqında düşünmür. O, öz duyğularını və potensialını heç bir kişi nəzarəti olmadan araşdırmaq istəyir, cəmiyyətin qəbul etmədiyi və ya tədricən, çətinliklə qəbul edəcəyi şərtlər altında olsa belə, Elizabet özündən əmindir, qürurludur və kişi boyunduruğuna tabe deyil. Şarlotte obrazı isə XIX əsrin əvvəllərində İngiltərədə əksər orta səviyyəli qadınların prototipidir. Ostin dövrün vəziyyətini, qadın düşüncələrini və cəmiyyətin qadına münasibətini oxuculara Şarlotte obrazı ilə çatdırır. *"A single man of large fortune; four or five thousand a year. What a fine thing for one of our girls!"*[39] (Böyük sərvət sahibi olan subay adam; ildə dörd-beş min deməkdir. Qızlarımızdan biri üçün nə gözəl seçimdir.) Bu vəziyyət göstərir ki, ingilis qadını öz identikliyini və taleyini idarə etmək gücünə malik deyil, evlənmiş qadın istənilən situasiyada evlənməmiş qadından üstündür.

Bu paraqrafdakı nəticələrin bir qismi "Ceyn Ostinin "Qürur və Qərəz" əsərində gender məsələləri", "İngilis ədəbiyyatında feminist utopiyasının başlanğıcı" [40] adlı nəşrlərdə öz əksini tapır.

II fəslin **"Gender məsələlərinin Azərbaycan ədəbiyyatında ilkin mənzərəsi"** adlı sonuncu paraqrafında ingilis ədəbiyyatında erkən gender mənzərəsi ilə Azərbaycan ədəbiyyatı müqayisə edilir, XIX əsrə qədərki Azərbaycan ədəbi mühitində təsvir olunan qadın məsələləri, qadın problemləri gender tədqiqatları nöqteyi-nəzərindən araşdırılır. XII əsrdə M.Gəncəvinin "Əmir Əhməd və Məhsəti"[41] əsəri təsdiqləyir ki, ingilis ədəbiyyatından beş əsr öncə (A.Behn, "Orunko", 1688) Azərbaycan ədəbiyyatında qadın yaradıcılığında gender və qadın azadlığı məsələlərini görmək mümkün idi. Onun rübailərində azad təfəkkürə can atmaq, qadını əsarətə salan çərçivəni qırıb atmaq istəyi əks olunur. Rafael Hüseynov yazır: *"Məhsətinin*

---

[39] Austen, J. Pride and Prejudice. // Paperback, Modern Library Classics, USA, CAN, – 2000. – p.6.

[40] Ağabəyli, V.E. Ceyn Austenin "Qürur və Qərəz" əsərində gender məsələləri // Gənc Tədqiqatçıların V Respublika Elmi-praktik konfransı, – Bakı: – 15 aprel, – 2022, – s. 23-25; Ağabəyli, V.E. İngilis ədəbiyyatında feminist utopiyasının başlanğıcı // – Bakı: Filologiya və Sənətşünaslıq, – 2021. №1 – s. 171-177

[41] Gəncəvi, M, Əmir Əhməd və Məhsəti dastanı: [Elektron resurs]. URL: https://az.wikipedia.org/wiki/M%C9%99hs%C9%99ti_G%C9%99nc%C9%99vi.

*zahirən kiçik görünən poetik irsinin daxili üfüqləri daha hüdudsuzdur. Məhsəti poeziyamızda azadfikirliliyin ilk carçılarındandır"*[42]. Məhsətinin "Əmir Əhməd və Məhsəti" adlı avtobioqrafik əsərinin qəhrəmanı maskalanmış utancaqlıq pərdəsini cırıb atmış, öz hisslərindən açıq-saçıq danışa bilən cəsarətli qadındır. R.Hüseynov Məhsəti yaradıcılığının təsiri ilə onunla təxminən eyni dövrlərdə yaşamış və yazmış R.Gəncəvi və beş qadın şairimizin rübailərinin aşkarlandığını vurğulayır ki, onların hamısı deyim tərzi, üslubu və ruhuna görə Məhsətinin rübailəri ilə həmahəngdir. Bu, həm də onu deməyə əsas verir ki, XII əsrdə Məhsəti qadın məktəbi yarada bilmişdi.

Nizami yaradıcılığının əsas mərkəzində insan və onun taleyi, ədalətli və xeyirxah cəmiyyətin təsviri durur ki, bu da müasir dövrün gender tədqiqatlarının əsas mövzusudur. Onun ideyaları və qadına münasibət beş-altı əsr sonra Qərb ədəbiyyatında gündəmə gəlib. Nizami[43] qadını yalnız ilahi eşqin təcəssümçüsü, paklıq və nəciblik rəmzi olaraq verməklə kifayətlənmir. Qadını ən ali hakim təbəqəyə, idarəetmə mövqeyinə qədər qaldırır: Nüşabə, Mehinbanu, Şirinin timsalında biz bunları görə bilirik. O dövrdə qadın əvvəlcə ata evində, sonra ər evində dilsiz bir kəniz idi, bir saraydan digər saraya əşya kimi verilirdi. O, qadına ikinci dərəcəli insan kimi baxıldığı dönəmdə layiq olduğu yüksək qiyməti vermişdi.

Daha sonra biz X.Şirvaninin "Töhfətül-İraqeyn"[44] əsərində anasının timsalında qadınların yaşadıqları acınacaqlı kölə, qul hesab edilən həyatlarının, onların zəhmətkeş, qayğıkeş və övladları üçün fədakar olduğunun təsvirini görə bilirik.

Nəsiminin əsərlərində qadın ən ali məxluq və həyat gözəlliklərinin rəmzi kimi təsvir olunmuşdur. Şairə görə, qadının məlahət və gözəlliyi asimanın gözəlliyidir və bu gözəllik insan, eşq

---

[42] Hüseynov, R. Söztək gözəl. Məhsəti / R.Hüseynov. – Bakı: Şərq-Qərb, – 2013. – s.32.

[43] Gəncəvi, N. Xosrov və Şirin / N.Gəncəvi. – Bakı: Lider, – 2004. – 392 s.; Gəncəvi, N. İsgəndərnamə. İqbalnamə / N.Gəncəvi. – Bakı: Lider, – 2004. – 256 s.; Gəncəvi, N. Poemalar (ixtisarla). "Məktəb kitabxanası"seriyasından tərtib edilib / N.Gəncəvi. – Bakı: Maarif, – 2002. – 240 s.

[44] Karimi, M.R. Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar. / M.R.Karimi. Fars dilindən tərcümə. – Bakı: Zərdabi, – 2014. – 96 p.

və səadət üçün yaranmışdır[45]. Onun təsvir etdiyi gözəl qadın qüsursuzdur, tayı-bərabəri yoxdur. Nəsimi ilə birlikdə hürufilik hərəkatında kişilərlə çiyin-çiyinə olmuş, öz ideyaları uğrunda birlikdə mübarizə aparmış, hünərlə savaşmış Fatimə Nəimi də yaradıcılıqla məşğul idi, onun qəzəllərində insanpərvərlik, eşq-məhəbbət, bərabərlik, azadlıq kimi motivlər təsvir olunurdu.

M.P.Vaqifin yaradıcılığında isə eybi olmayan qadının çadrayla örtünməsinə qarşı çıxan "*Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq? Bəsdir bu dayanmaq!"*[46] ideyasını görürüksə də, o qadının daha çox gözəlliyinin bədii təsvirini verməklə kifayətlənir, qadını vəfa, sədaqət, təmizlik və s. rəmzi olaraq görmək istəyir.

Bu fəsildə apardığımız təhlillər və qənaətlər "Nizami yaradıcılığında gender məsələləri", "Early Assessment of Gender Concerns in Azerbaijani Literary Context", "Investigation of Gender Identity in the Literary Works of Prominent Medieval Azerbaijani Authors" [47] adlı tezis və məqalələrdə dərc edilmişdir.

Bu fəsildə araşdırdıqlarımızdan belə nəticəyə gəlmək olar ki, Azərbaycan ədəbiyyatında qadın, kişi şairlər, yazıçılar tərəfindən ancaq pozitiv çalarlarla təsvir olunub. İngilis ədəbiyyatı ilə müqayisəli araşdırma zamanı aydın olur ki, V.Vulf "Şəxsi otaq" (1929) əsərində XVI əsrdə İngiltərədə hər hansı bir qadının şeir və ya əsər yazmasını öz ölümünə imza atmağa bənzədirdi. Şekspiri məşhurlaşdıran cəmiyyətin o dövrdə qadına eyni rəğbətlə yanaşmasının mümkün olmadığından şikayət edən V.Vulfun[48] bu

---

[45] Azərbaycan klassik ədəbiyyatı kitabxanası: [20 cilddə] / Bakı: Elm, – c.5. – 1985. – 368 s.

[46] Molla, P.V. Biblioqrafiya /tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, G.Misirova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı: – 2017. – s. 35

[47] Ağabəyli V.E. Nizami yaradıcılığında gender məsələləri // Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər konfransının proqram və materialları, – Bakı: – 7 oktyabr, – 2021, – s. 136-140; Aghabayli, V.E. Early Assessment of gender concerns in Azerbaijani literary context // – Norway: Norwegian Journal of development of the International Science, – 2024. № 126, – p.89-93; Aghabayli, V.E. Investigation of Gender Identity in the Literary Works of Prominent Medieval Azerbaijani Authors // – Tashkent: Golden Scripts – Oltın Bıtıglar, – 2023. vol. 4, – pp. 97-108.

[48] Woolf, V. A Room of One's Own. / V.Woolf. – Wordsworth Editions, Ware, Hertfordshire, – 2012. – p.60

gileyinə münasibət olaraq, Azərbaycan ədəbiyyatında Nizami ilə eyni dövrdə yaşayıb yaradan Məhsətini nümunə gətirmək olar. Qadınları çadra tanımayan, daha sərbəst, daha azadhüquqlu olan həm Britaniya, həm Avropa, həm də Amerika ədəbiyyatı üçün XII əsrdə Məhsəti yaradıcılığında olan motivlər, intibah gerçəkliyi bir neçə əsr sonra belə əcaib görünə bilərdi[49]. XVII-XVIII əsrdə Daniel Defo, Meri Uolstonekraft qadınları təhsilə səsləyirdisə, XII əsr Azərbaycan qadını Məhsətinin simasında təhsilli, yaradıcılıqla məşğul olan, hətta qadın məktəbi yaradan bir yazıçı qadın görürük.

**“Feminin” mərhələ və müvafiq dövr Azərbaycan ədəbi mühitində gender mənzərəsi”** adlanan **III fəsil** dörd paraqrafdan ibarətdir.

**“E.Brontenin yaradıcılığında kişi və qadın münasibətlərinin spesifikliyi”** adlanan birinci paraqrafda Viktoriya ədəbiyyatında gender məsələləri, E.Brontenin “Uğuldayan aşırım” əsərində gender perspektivləri təhlil və şərh olunur. E.Şoulter “feminine” yəni, qadınsayağı adlandırdığı 1840-1880-ci illərdə qadın yazıçılar kişi mətnlərinə bənzər bədii əsərlər yaratsalar da, onların yaradıcılığı növbəti illərdə roman janrının inkişafına və qadınların ədəbiyyatdakı roluna təkan oldu. Viktoriya dövrü ədəbiyyatında yavaş-yavaş yeni qadın özünüdərki formalaşdı. Ədəbiyyat vasitəsi ilə qadınlar ər-arvad münasibətlərini yenidən gözdən keçirdilər və həyat, qadın haqqında öz düşüncələrini, fikirlərini bir-birlərinə çatdıra, təcrübə mübadiləsi edə bildilər. Bununla da, bəlkə də ən əsas məsələ olaraq, ədəbiyyat tarixində ilk dəfə qadınlara müstəqil şəkildə özlərini ifadə etmək üçün bir yol verildi, artıq dünyada tamamilə yeni bir perspektiv ortaya çıxdı – qadın perspektivi.

E.Brontenin “Uğuldayan aşırım” (1847) əsərində Edqar və Ketrinin həyatı tam ənənəvi Viktoriya dövrü mənəviyyatını əks etdirsə də, Ketrin Viktoriya dövrü əxlaqı baxımından çox da uyğun görünmür: Uşaqlıq məhəbbətindən ayrılıb məntiqli şəkildə varlı Lintonla ailə quran Ketrin Hitklifi sevməkdən vaz keçmir. Onun içində olan bu sevgi və ehtiras getdikcə daha da alovlanır, özünə də mənəvi iztirab verir: *“Nelli, mən elə Hitklifəm! O, həmişə mənim*

---

[49] Hüseynov, R. Söztək gözəl. Məhsəti / R.Hüseynov. – Bakı: Şərq-Qərb, – 2013. – s.32.

*ağlımdadır: bir zövq kimi deyil, daha çox mən həmişə özüm öz varlığım kimi ondan zövq alıram."*[50]. E.Bronte Ketrini dövrün qadınlarından daha sərbəst, hisslərini daha ifadəli, hərəkət və davranışlarını daha özgüvənli təqdim etsə də, Ketrin cəmiyyətdəki və ailədəki yerini və mövqeyini tamamilə aydın şəkildə bilən bir Viktoriya qadınıdır, özünə xas olan qadınlıq xüsusiyyətləri evliliyini müəyyənləşdirən və möhkəmləndirən itaətkar bir arvad, ana olmağa hazırlaşanlara xas xüsusiyyətləri təcəssüm etdirən qadındır. O, əsərin əvvəlində göstərdiyi cəsarətin və sərbəstliyin əksinə olaraq, öz hisslərinin arxasınca düşərək ərini atıb Hitkliflə getməkdənsə, özünü tədricən ölümə məhkum edir.

Beləliklə, Viktoriya dövrü ədəbi kanonu üçün qeyri-spesifik olan "Uğuldayan aşırım" əsərində E.Bronte, müasirlərindən seçilərək, daha fərqli şəkildə kişi və qadın arasındakı münasibət və sevgi konsepsiyasının bədii təsvirini təqdim edir.

**"Ş.Brontenin yaradıcılığında qadın problematikasının bədii ifadəsi"** adlı ikinci paraqrafda isə Ş.Brontenin əsərlərində ənənəvi kişi təhlilləri ilə qadına baxış tərzi, qadının ifadə azadlığı, öz işlərini idarə etmək bacarığı, özünə inamı, cəsarəti araşdırılır və şərh edilir.

"Professor"[51] romanını kişi və qadın münasibətlərinin bədii reprezentasiyasında ilkin cəhdlərdən hesab etmək olar. Tədqiqat işimiz baxımından, romanın ən əhəmiyyətli tərəfi, əsərdə qadın yazıçının özünün dualizm hissini ifadə etməsidir. Yəni yazıçı sanki müəllifin qadın olduğunu gizlətməyə çalışır. Eyni zamanda, belə bir ikili taktika ilə "kişilik" və "qadınlıq" kimi anlayışları araşdırmaq üçün gizli istəklərini açıq şəkildə nümayiş etdirir. Ş.Bronte baş qəhrəman kişi obrazı Krimsvort "maskasına" girərək, kişilərin qadınlar üzərində hökmranlığını həm istehzalı, həm də tənqidi təsvir edir. Digər tərəfdən də, onun seçdiyi bu taktika ona ədalətli və obyektiv gender qiymətləndirməsi aparmağa imkan verir. Əsas obrazda əksər şəxsi xüsusiyyətlərini cəmləşdirən yazıçı, qadının məhdud qadınlıq normalarına obrazın dili ilə etiraz etmək imkanı

[50] Bronte, E. Wuthering Heights / E.Bronte. – London: Harper Collins Publishers, – 2009. – p.106.

[51]Bronte, Ch. The Professor. / Ch.Bronte. – London, Smith, Elder & Co.65, Cornhill, – 1857. – 433 p.

qazanır. Yalnız cəmiyyətin kişi təbəqəsi üçün məqbul hesab edilən iddialarda inadla qadın hüquqlarını qabartmağa çalışmaqla yanaşı, həm də kişi ictimai dairələrinə, kişi toplumuna sızmaq və orada eşidilmək şansını dəyərləndirir. Yazıçı həm də Krimsvort obrazı və Kurrer Bell psevdonimi altında qadını Viktoriya dövrü tənqidçilərinin və oxucularının hücumlarından da qoruyur.

Ş.Bronte "Ceyn Eyr"[52] romanında yalnız qadının üzləşə biləcəyi problemlər, çətinliklər və evli qadınların müəyyən üstünlüklərini təqdim edir. Ş.Bronte öz qəhrəmanına bir sıra çətinliklərdən keçmək üçün dövrünə və statusuna zidd olan cəsarət, sərbəstlik versə də, etiraf etmək lazımdır ki, açıq şəkildə feminist etirazlardan ehtiyat edir. Roçesterlə görüşdükdən sonra bir qadın olaraq ona məhdudiyyətlər qoya bilsə də, sevgi və evliliklə bağlı ənənəvi baxışları qəbul edir. Əslində, "Ceyn Eyr" romanı, İngiltərənin Viktoriya dövrü üçün mövcud olan gender ideologiyasına meydan oxuyur, "qadınlıq" və "qadının şəxsiyyəti" anlayışlarının yaranmasını və qorunmasını müdafiə edir. Ş.Bronte kişilərin hökmranlığını rədd edir və kişi ilə qadın arasındakı münasibətlərə yeni bir baxış təklif edir. Əsər boyu Ceyn digər həmcinsləri ilə ziddiyyət təşkil edir və bu cəsarətin sayəsində müxtəlif formalarda sırf qadın dəyərlərini nümayiş etdirə bilir. Baş qəhrəman bu nümunələrlə əlaqəli özünü qiymətləndirən və müəyyənləşdirən yeni qadın tipini, yeni qadın şəxsiyyətini özünün timsalında təqdim edir.

Ş.Brontenin diqqəti qadınların xarici görkəmindən daha çox onların mənəviyyatına və zəkasına yönəltməyə çağırış etdiyini görmək mümkündür. Əsərin sonunda, o məhz mənəviyyatı zəngin, təmiz və vicdanlı Ceyni qalib etsə də, bu mərhələdə də anlamaq mümkündür ki, Viktoriya qadınının qələbəsi "yaxşı ər" tapmaq və evlənmək hesab olunur. Əsərdə Roçesterin evli olması, hətta bir qızının olması, Blanşla əyləncələri qətiyyən müzakirə olunmur, Ceyn onunla evlənməyə hazırdır, yetər ki, Roçester onu seçsin, onunla evlənmək istəsin. Yenə də ənənəvi şəkildə kişi seçicidir, yenə də evlilik qadının çata biləcəyi ən üstün mərhələdir, yenə də çərçivədən

---

52 Bronte, Ch. Jane Eyre. / Ch.Bronte. – London: Smith, Elder and Co., Cornhill, Third Edition, – 1857. – 295 p.

tam çıxmaq mümkün deyil!

Ş.Brontenin "Şirli"[53] (1849) romanında kişilərin üstünlük təşkil etdiyi bir cəmiyyətdə qadınların onlara tabe olması, sənaye dəyişiklikləri və istismara qarşı çıxan işçilərin mövqeyi paralel olaraq nəzərdən keçirilir, bir qadın üçün tənhalıq və evlilik problemləri geniş təqdim edilir. Şarlotte bu romanda da iki qadın tipini müqayisə edir: itaətkar və müstəqil. Əgər "Ceyn Eyr" əsərində Ceynin bir qadın olaraq, cəsarəti, üstün xüsusiyyətləri tədricən və təkbaşına təqdim olunurdusa, "Şirli" əsərində bu məsələlər Karolin və Şirli obrazlarının müqayisəsi ilə nəzərdən keçirilir.

Əslində, Şirli tam olaraq, gender münasibətlərində bəzi ənənəvi fikirlərdən məhrum deyil, o, qarşı cinsin yaxşı nümayəndəsini axtarıb tapmaq niyyətindədir. İkincisi, Şirli obrazı bir qadının istək və ehtiyacları ilə əlaqəli müəllifin ziddiyyətlərini ifadə edir: bir tərəfdən Şirli müstəqilliyi ilə öyünür, digər tərəfdən isə dəstəyə ehtiyac duyur. Bu dualizm, yazıçının "qadın", "qadın cinsi", "qadınlıq" anlayışları haqqında düşüncələrini yaratdığı obrazlarla açıqlayır.

"Şəhərcik"[54] (1853) romanında isə təsvir olunan digər gənc qadın obrazları Ginevra və Paulina fərqli qadın tipləri olmalarına baxmayaraq, ənənəvi romantik istəkləri ilə təqdim olunurlar. Hər iki qız evlənəcəyinə əmindir; ancaq biri açıq şəkildə hədəfini axtarır, digəri isə səbirlə onu seçəni gözləyir. Şüuraltı olaraq, bu xanımların hər biri ilə özünü müqayisə edən Lyusi öz fərdiliyini anlayır və çətin qadın təbiəti haqqında daha çox şey öyrənir.

"Şəhərcik" romanının finalında isə qadının yüksək nailiyyətlərə yol aça bilməsinə inam hissi təsdiqlənir. Lyusi özünəməxsusluğuna, digər qadınlardan fərqli olduğu üçün öz fərdiliyinə görə məmnuniyyət duymağa başlayır. "Ceyn Eyr" və "Şirli"dən fərqli olaraq "Şəhərcik" əsərində Ş.Bronte çoxsaylı ziddiyyətləri xoşbəxt sonluqla yekunlaşdırmağa çalışmır. Digər tərəfdən isə, bu romanda evliliyin baş verib-verməməsindən asılı olmayaraq, artıq qadının müstəqillik hüququ tanınır.

---

[53] Bronte, Ch. Shirley: [In Three Volumes] / Ch.Bronte. – London: Smith, Elder & Co., Cornhill, – 1849. – 670 p.

[54] Bronte, Ch. Villette: [In Three Volumes] / Ch.Bronte. – London: Smith, Elder & Co., Cornhill, – 1853. – 507 p.

Ümumiləşdirsək, belə deyə bilərik ki, Ş.Brontenin bütün əsərlərində Viktoriya dövrü kanonuna uyğun olan qadın obrazları – "Ceyn Eyr"də Blanş, "Şirli"də Karolin, "Şəhərcik"də Ginevra və Paulin obrazlarına əlavə olaraq, qadın dünyagörüşünün dualizmini əks etdirən, qadınların təməldən yeni obrazları – mənəvi cəhətdən zərif, müstəqil və öz ləyaqətlərini qabarıq şəkildə dərk edib qorumağa çalışan, öz seçimində israr etməyi bacaran, mühakimə müstəqilliyi olan, genderlərarası münasibətlərdə ənənəvi fikirlərdən uzaqlaşmağa çalışan, qarşılıqlı inam və hörmətə əsaslanan evliliyi üstün tutan yeni qadın obrazları da meydana çıxdı. Ş.Bronte demək olar ki, bütün romanlarında qadınların cəmiyyətdəki yeri və rolu problemini, tamamilə, "qadın" baxışından əlavə, ənənəvi bir kişi nöqteyi-nəzərindən də təqdim edir ki, bu da tez-tez qarşı cinsin təkəbbürlü bir münasibətə əsaslanan evlilik məsələsini antipatik mənzərə olaraq təcəssüm etdirir.

III fəslin **"C.Eliot və T.Hardinin əsərlərində qadın özünüdərk məsələləri"** adlı üçüncü paraqrafında həm C.Eliotun, həm də T.Hardinin əsərlərində feminist perspektivlər, gender identikliyi, qadın problemi araşdırılır.

Feministlərin diqqətini çəkən yalnız C.Eliotun görkəmli şəxsiyyəti deyil, həm də onun "Flosdakı dəyirman" və "Midlmarç" [55] əsərlərində İngiltərənin Viktoriya dövrü cəmiyyətində qadının yaşadığı haqsız münasibətlərin dərk olunması və təsvir edilməsidir. İngiltərənin ənənəvi patriarxal quruluşunda mövcud olan gender asimmetriyasını, kişinin qadın üzərində üstünlüyünü və qadın səsinin mədəni kontekstlərdə sıxışdırılmasını aydın şəkildə təsvir edən yazıçı, öz daxili etirazı və ictimai əxlaq arasındakı ziddiyyəti yenə də ikincinin xeyrinə həll edir. C.Eliot qəhrəmanlarının məhdudiyyətli həyatlarını qınasa da, onları "qurban" olmağa təşviq edir. Bu fikrimiz E.Şoulterin ifadəsi ilə də üst-üstə düşür: *"C.Eliot əzab çəkməyi qadının peşəsi səviyyəsinə "qaldırır"*[56].

---

[55] Eliot, G. The Mill on the Floss / G.Eliot. – London: Penguin Books Ltd, – 2003. – 529 p.; Eliot, G. Middlemarch. / G.Eliot. – Midlands, London: W.W.Norton & Company, – 1999. – 688 p.

[56] Showalter, E.A Literature of Their Own. The British Women Novelists from Bronte to Lessing / E.A.Showalter. – Princeton: Princeton University Press, – 1977. – p.137.

Yazıçı romanlarında dinamik və zəngin bir daxili həyat yaşayan istedadlı, qeyri-adi qadınları canlandırır, lakin çox şey əldə etməyə qadir olsalar da, onlara istedadlarını tətbiq edə biləcəkləri bir sahə vermir. Eliotun romanlarındakı qadın mövzusunu sələflərinin əsərləri ilə müqayisədə bəzi yeni xüsusiyyətləri ilə fərqləndirmək olar: sosial və mənəvi qadın problemi əxlaqi bir plana çevrilir, eqoizm və alturizm (fədakarlıq) arasındakı ziddiyyət öz əksini tapır, qadının cəmiyyət qarşısında vəzifə və şəxsi xoşbəxtliyi arasındakı mübarizə təsvir olunur. Romanların finalında isə Viktoriya dövrü romanlarına xas olan iki çıxış yolu təqdim olunur – ya ölüm, ya evlilik.

T.Hardi yaradıcılığını ona görə qiymətli hesab etmək olar ki, tədqiqat işimizə daxil etdiyimiz digər Viktoriya dövrü yazıçıları özləri qadın olaraq həmcinslərinin problemlərini, kişilərin qadınlar üzərindəki gücünü, cəmiyyətin qadına kişidən daha aşağı statusla yanaşmasını, evlilik-boşanma problemlərini təqdim edirdilərsə, Hardi bir kişi olaraq, sələflərindən daha kəskin şəkildə kişi və qadın müqayisəsini aparır, qadınların namus məsələsinə patriarxal cəmiyyət və kişilər tərəfindən daha çox radikal yanaşmaları təqdim edir.

Əslində, dövrün cəmiyyət münasibətləri əsərlərdə inqilabi xarakterlər tələb etsə də, Viktoriya dövrünün digər yazıçıları kimi T.Hardi də yaradıcılığında və obrazlarında inqilabi çevrilişlər edə bilməyib. Buna baxmayaraq, Hardi Tess, Batşeba, Syu kimi obrazlar yaradaraq qadın hüquqlarını qorumağa çağırışın toxumlarını cücərtməyi bacarıb. T.Hardinin təsvir etdiyi zərif qadın obrazları açıq şəkildə təbliğatçı olaraq təqdim olunur. Viktoriya cəmiyyətinin getdikcə daha da ənənəvi xarakter almasına baxmayaraq, yazıçının təqdimatını çağdaş cəmiyyətin qurulmuş ideologiyalarından üstün hesab etmək olar. Hərçənd ki, cəmiyyət bu cür məsələlərə sərt reaksiya verirdi, ancaq T.Hardi təsvir etdiyi qadın obrazlarına proqressiv xətt üzrə yeni bir status verməyə çalışırdı. O, kişi və qadınlar üçün fərqli meyarlar müəyyənləşdirən Viktoriya cəmiyyətinin qurulmuş normalarına qəti şəkildə qarşı çıxırdı. "Dörbevillərdən Tess" romanında bakirəliyini itirmiş, qeyri-qanuni uşaq dünyaya gətirmiş günahsız Tess üçün Hardinin "pure" – saf sözünü istifadə etməsi, o dövrün tabularından çıxmaq istəyidir: *"What a fresh and*

*virginal daughter of Nature that milkmaid is!"*[57]. O, oxucunu yönəltsə də, qadın obrazlarının müsbət və mənfi olması ilə bağlı qərarı oxucuya verir. Hardinin qadın qəhrəmanlarında olan sərbəstlik və güc onları Viktoriya dövrü digər qadın obrazlarından fərqləndirir. Həm seksuallıq, həm də kişi xüsusiyyətlərini özündə birləşdirən ehtiraslı qadın obrazı T.Hardinin yaratdığı yeni qadın tipi idi.

**"Azərbaycan ədəbiyyatında real qadın surətlərinin bədii əksi"** adlanan dördüncü paraqrafda XIX əsrdə Azərbaycan ədəbiyyatında gender problemləri nəzərdən keçirilir və dövrün gender tədqiqatları baxımından önəm kəsb edən yazıçılar və onların əsərləri təhlil edilir.

Gender tədqiqatları baxımından, XIX əsr Azərbaycan ədəbiyyatı bir tərəfdən qadının maariflənməyə, təhsilə çağırış, cəmiyyətdə aktiv rol alması baxımından təbliğatı, çoxarvadlılığa, dini xurafata qarşı çıxmaq ideyalarının yayıldığı üçün, digər tərəfdən isə, qadın yazıçı-şairlərin ədəbiyyatda yer aldığı üçün əhəmiyyətlidir. Xurşidbanu Natəvan, Aşıq Pəri, Fatma xanım Kəminə, Heyran xanım, Gövhər xanım, Məşədi xanım Leyli, Qönçəbəyim, Ağabəyim Ağa dövrün ən məşhur qadın simalarından idi.

İ.Qutqaşınlı "Rəşid bəy və Səadət xanım" hekayəsində Şərq qadını və kişisinin xarakterik xüsusiyyətlərini göstərməyə çalışaraq qadına bütün var-dövlət, sərvət, rütbə və boyunduruqdan imtina etməklə sevdiyi insanla qaçıb qovuşa bilmə cəsarəti verir. Hərəmxana həyatı, qadının ata və qardaşdan başqa heç biri kişi ilə qarşılaşmadığı, rübəndi ilə örtüldüyü, itaətkarlığa məcbur edildiyi bir dövr həm də, kişilər üçün çətindir. Evlilikdə nişan və cehiz məsələlərinin həlli kişilərin boynuna, itaətkarlıq isə qadınların boynuna düşən yükdür. İ.Qutqaşınlı yazır ki, *"Bütün müsəlmanlar evlənənə qədər gələcəkdə onların həyat yoldaşları olacaq qadını görməkdən məhrumdur"*[58].

XIX əsr Azərbaycan ədəbiyyatına öz möhürünü vuran

[57] Hardy, T. Tess of the d'Urbervilles / T.Hardy. – GlobalGrey, – 2018. – p.134.
[58] Qutqaşınlı, İ. Rəşid bəy və Səadət xanım. / İ.Qutqaşınlı. Tərcüməçi: Səlim bəy Behbudov. VİVO –book.com. – 2014. – s.14.

ədiblərdən biri M.F.Axundzadə[59] idi. Onun yaradıcılığı gender tədqiqatları baxımından xüsusi əhəmiyyət kəsb edir. Yaşadığı, cahilliyin yayıldığı dövr üçün Azərbaycan qadınını ilk dəfə səhnədə kişi ilə birlikdə təqdim etmək, nəinki Azərbaycan, bütün Şərqdə böyük hünər hesab edilə bilər. Azərbaycan ədəbiyyatında ilk ədəbi tənqidçi hesab olunan Axundzadə həm də müsəlman aləmində qadının yerini və rolunu tənqid edən ədiblərdən biri idi. Zorakı evliliklər, qadın və qızların istismarı, təhsilsizliyi, üzləşdikləri məişət problemləri, dini xurafat və cahilliyin qurbanı olmaları Axundzadəni düşündürən əsas məsələlərdən idi. O, maariflənməni və inkişafı həm kişilərin, həm də qadınların təhsil almasında, bərabər hüququnda, ictimai həyatda təmsil olunmasında görürdü. Dövrün qəbuledilməz xüsusiyyətlərini tənqid edib, yeniliyi təbliğ etmək üçün ədəbiyyata müraciət etməsi ideyalarının yayılmasında önəmli rol oynadı.

Gender tədqiqatları baxımından həmin dövrün Azərbaycan ədəbi mənzərəsini ümumiləşdirsək, aydın olar ki, erkən nikah, aşağı sosial status, çoxarvadlılıq, qadınlara qarşı kobud rəftar dövrün diqqətçəkən problemi idi. Bununla yanaşı, həmin dövrdə qadın ziyalıların seçilməsi, onların fəaliyyəti və dövrün reallıqlarından çəkinərək daha ciddi hərəkata keçə bilməsələr də, öz ailələrinin nüfuzundan, reputasiya və maddi dəstəyindən istifadə edərək qadınların, xüsusilə, Natəvanın təşkil etdiyi xeyriyyəçilik tədbirləri və maarifləndirmələr, XIX əsr aktivist qadın intellektuallarının məqsədli fəaliyyətinə işarədir. Bütün bunlar növbəti mərhələlərdə Azərbaycan qadını üçün işıqlı yolun açılmasına təkan idi.

Dövrün həm ingilis ədəbiyyatı, həm də Azərbaycan ədəbiyyatı baxımından gender xüsusiyyətlərini ümumiləşdirsək, aydın olur ki, XIX əsrdə Qərbi Avropa və Amerika ədəbiyyatında feminist hərəkatların daha çox əks olunmasına baxmayaraq, "qadın probleminin" təkamülündə başlanğıc nöqtəsi olaraq ən vacib yer – qadınların yalnız cəmiyyətdə deyil, varlıq sırasındakı rolunun və yerinin təsvirinə, öyrənilməsinə üz tutan məhz Viktoriya dövrü yazıçıları idi. Təbii ki, XIX əsrdə Azərbaycanda Natəvan, Qönçəbəyim, Gövhər xanım, Qəmər Şeyda və s. kimi intellektual

[59] Axundzadə, M.F. Əsərləri: [3 clddə] / M.F.Axundzadə. – Bakı: Şərq-Qərb, – c.1. – 2005. – 296 s.

qadınlar Qərbdə olduğu kimi qadın hərəkatları təşkil edib, yürüşlər, aksiyalar keçirə bilməzdi, cəmiyyətin reallığından qaça bilməzdilər. Lakin bu qadınların ciddi cəhdlərlə təşkil etdikləri, rəhbərlik etdikləri və iştirak etdikləri ədəbi məclislər, həmin məclislərə cəlb olunan qadınlar qadın yaradıcılığının təbliği, qadın azadlığı və maariflənməsi yolunda önəmli addımlar idi. Bundan başqa, qadının xeyriyyə fəaliyyəti ilə məşğul olması da onların sosial aktivliyini və kişi fəaliyyətinə bərabər tutula biləcək uğurlu addımlarını göstərirdi.

Ümumilikdə, bu fəsildə araşdırılan məsələlər və nəticələrin bir qismi "George Eliotun əsərlərində qadın özünüdərk məsələləri", "Emili Brontenin "Uğuldayan aşırım" romanında gender məsələləri", "Tomas Hardinin əsərlərində "yeni qadın" və feminist perspektivlər" "Azərbaycan ədəbi-mədəni mühitində gender ideologiyası" [60] adlı məqalələrdə çap olunmuşdur.

**"İngilis və Azərbaycan ədəbiyyatında inkişaf edən gender perspektivləri"** adlanan **IV fəsil** dörd paraqrafdan ibarətdir.

İngilisdilli gender ədəbiyyatının formalaşmasında, qadın nəsrinin inkişafında "Feminist" mərhələ (1880-1920) yazıçıları mühüm rol oynadılar. Onlar öz dövrlərinin ictimai normalarına meydan oxumaqla yanaşı, növbəti ədəbi inkişafın, "Female" (qadın) mərhələnin (1920-1990), yəni qadın ədəbiyyatının əsasını qoydu. Feminist mərhələnin yazıçıları dövrün sosial və mədəni dəyişikliklərini əks etdirməklə yanaşı, "Yeni qadın", evlilik, iqtisadi azadlıq, gender identikliyi, seksuallıq kimi mövzuları araşdıraraq, cəmiyyəti idarə edən və daha böyük gender bərabərliyinə yol açan patriarxal strukturları tənqid edirdilər. Beləliklə, XX əsr Britaniya ədəbiyyatında gender probleminin bədii reprezentasiyası ən aparıcı

---

[60] Ağabəyli, V.E. George Eliotun əsərlərində qadın özünüdərk məsələləri // Bursa 1st International Scientific Research Congress, – Bursa: – December 18-19, – 2021, – s. 77-84; Ağabəyli, V.E. Emili Brontenin "Uğuldayan aşırım" romanında gender məsələləri // Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2021. №2 (21), – s. 28-35; Ağabəyli V.E. Tomas Hardinin əsərlərində "Yeni Qadın" və Feminist perspektivlər // 3rd International Congress of Khazar Scientific research, IKSAD Publication, –Baku: – January 7-9, – 2022, – s. 553-558; Ağabəyli, V.E. Azərbaycan ədəbi-mədəni mühitində gender ideologiyası // "Xan qızı Natəvan və Azərbaycan qadınının ədəbi-mədəni mübarizələri" adlı Beynəlxalq Konfrans, – Bakı: – 5-6 iyul, – 2022, – s. 191-198.

və sürətli inkişaf xətti ilə seçilən mövzularından birinə çevrildi.

**"İngilis ədəbiyyatında ənənəvi gender normalarının pozulması"** adlı birinci paraqrafda V.Vulf, E.M.Forster və D.H.Lourens kimi modernist yazıçıların ənənəvi gender rollarına meydan oxuyan innovativ təhkiyə üslubları, onların əsərlərində genderin mürəkkəb təbiətinin bədii təsviri araşdırılır.

V.Vulfun "Şəxsi otaq" əsərini feminist ədəbi tənqidin ən başlanğıc əsərlərindən biri hesab etmək olar. İngiltərədə 1928-ci ildə qadınlara seçki hüququ verildikdən bir il sonra 1929-cu ildə yazılmış bu əsərdə V.Vulf XVI əsrdən bəri yazıçıların, xüsusilə də, qadın yazıçıların əsərlərini və üslublarını araşdırır, tənqid edir, qadının cəmiyyətdə və ədəbiyyatda rolunu, onun sosial və iqtisadi asılılığını təhlil edir. Hər iki cinsi müqayisə edərək, kişilərin zəngin və qadınların yoxsul olduğunu vurğulayır, bu baxımdan da, qadınların uğursuz olduğunu bildirir. V.Vulf qadınları sərbəstliyə, iqtisadi cəhətdən boyunduruqdan çıxmağa səsləyir. O, bunun bir yolunun da ədəbiyyat olduğunu düşünür. O, qadınlara sərbəst şəkildə öz düşüncələrini qələmə almağı, hər bir mövzuda yazmağı tövsiyə edir. V.Vulf daha sonra qadınları güzgü adlandırır, onun fikrincə, qadınlar əsrlər boyu kişiləri olduqlarından iki dəfə böyük göstərən sehrli və möhtəşəm gücə sahib güzgü rolunu oynayıb: *"Women have served all these centuries as looking-glasses possessing the magic and delicious power of reflecting the figure of man at twice its natural size."*[61] Buna görə, Napoleonla Mussolini qadınların zəif olmasını israrla vurğulayırdı. Əgər qadınlar aşağıda olmasaydı, kişilər özlərini yüksəldə bilməzdilər. Bu vəziyyət qadınların kişilər üçün necə əhəmiyyətli olduğunu qismən açıqlayır.

"Xanım Dalovey" əsərində V.Vulf romanın baş qəhrəmanı Klarissanın Riçardla evlənib xanım Dalovey olaraq çağırılmasını, soyadının və müraciət formasının dəyişdirilməsini şəxsiyyətin, kimliyin dəyişməsi kimi qəbul edir, evliliklə onun kişi cinsindən asılılığını, hətta nikahdan əvvəl ata evində belə kişilərdən asılı olduqlarını, əvvəl ata və qardaş, sonra ər, daha sonra isə oğlun qadını üstələməsi ilə kişilərin üstünlük təşkil etdiyi cəmiyyətin xarakterini

[61] Woolf, V. A Room of One's Own / V.Woolf. – Wordsworth Editions, Ware, Hertfordshire, – 2012. – p.52.

açır. V.Vulf “self” (insanın özü) və “identity” (kimliyi, şəxsiyyəti) arasında danılmaz əlaqə olduğunu vurğulayır. İnsanın mənliyi olmayanda identikliyi də ola bilməz. *“Lakin onun sahib olduğu bədən bütün imkanları ilə ona tamamilə heç bir şey kimi görünürdü.”*[62]

D.H.Lourensin təsvir etdiyi qadın qəhrəmanlarının həyatındakı güc, bilik qədər əhəmiyyətlidir. Onun təsvirinə əsasən, özünə güvənən qadın tək qalmaqdan qorxmur. Problemlərin öhdəsindən gəlməkdə və hər şeyi təkbaşına etməkdə bacarıqlıdır. D.H.Lourensin əsərləri ona görə diqqətimizi çəkir ki, o, ənənəvi gender rollarından imtina edir, onun əsərlərində feminist ideyalar çoxdur, qadınların şəxsi həyatlarını və hisslərini üzə çıxarır. *“A woman has to live her life, or live to repent not having lived it.”*[63] – (Qadın öz həyatını yaşamalıdır, ya da yaşamadığına peşman olmaq üçün yaşamalıdır.) O, qadınların daxili həyatlarını və seksuallığını üzə çıxarmaqdan çəkinmir. Genderin bədii identikliyi baxımından, yazıçının “Çatterlinin xanımının sevgilisi” əsəri cinsi azadlığın bir forması kimi qiymətləndirilə bilər. Roman ictimai tabulara meydan oxuyur, qadınların öz bədənləri və istəkləri üzərində nəzarəti ələ alması ideyasını önə çıxarır. Roman həm sinif, həm də gender baxımından güc dinamikasını üzə çıxarır. Lakin D.H.Lourensin qəhrəmanının bir kişi ilə mübarizədən qalib çıxaraq, digər kişiyə təslim olması, əsərin xoşbəxt sonluğunun məhz evliliklə yekunlaşması Viktoriya roman janrı xüsusiyyətlərini özündə daşıyır.

XX əsr Britaniya ədəbiyyatında E.M.Forsterin “Moris”[64] əsəri İngiltərə kontekstində gender identikliyinin mürəkkəbliklərini araşdıran ən önəmli əsərlərdən biridir. “Moris” romanı gender identikliklərinin bədii təsvirini təqdim edən, cəmiyyət normalarına, problemlərə və obrazların yaşadıqları transformativ səyahətlərə işıq salan əsərdir. Forster Viktoriya dövrü dəyərləri və ictimai gözləntiləri ilə seçilən cəmiyyətdə gender identikliklərinin kəskin fərqini

---

[62] Woolf, V. Mrs. Dalloway / V.Woolf. – London, Wordsworth Edition Limited, – 2003. – p.8

[63] Lawrence, D.H. Lady Chatterley’s Lover / D.H.Lawrence. – Lincolnshire, Modern Library, – 1983. – p.93

[64] Forster, E.M. Maurice / E.M.Forster. – London: W.W.Norton Company, – 2005. – 256 p.

vurğulayaraq, Edvard dövrü Britaniyasındakı ədəbi mühitin fərqliliyini canlandırır. Vulfun "Orlando"[65] əsərində bənzər motivlərə rast gəlinsə də, "Moris" romanı Evdard İngiltərəsində qəbul edilməmiş "gey" ədəbi ənənəsini ortaya çıxaran pioner əsər hesab edilir. Roman nəinki gender məsələlərinin müdafiəçisi, həmçinin homoseksual sevginin manifesti olaraq təqdim edilir. XX əsrin əvvəllərində mövcud olan gender və seksuallıq normalarına meydan oxuyan "Moris" əsəri eynicinsli sevginin təqdim edildiyi LGBTQ+ ədəbiyyatının xəbərçisi mövqeyini daşıyır.

Bu paraqrafda aydın olur ki, V.Vulf, E.M.Forster və D.H.Lourensin əsərləri obrazların həyat təcrübələrini əks etdirərək gender, seksuallıq və şəxsiyyətin psixoloji və sosial ölçülərini üzə çıxarır. Onlar qadın və kişi üçün qəbul edilmiş ənənəvi normaların ədəbi çərçivəsini aşaraq, insan xarakterini, genderin mürəkkəbliyini başa düşmək üçün fərqli baxış, yeni yollar təklif edirlər.

Bu paraqrafda aparılan tədqiqatlar və alınan qənaətlərin bir qismi "Virciniya Vulfun əsərlərində gender tədqiqatlarına modernist yanaşma" və "Bədii ədəbiyyatda müharibə mövzusunun genderoloji xüsusiyyətləri" [66] adlı məqalələrdə öz əksini tapır.

**"Gender kimliyi axtarışı və gender rollarının bədii rekonstruksiyası"** adlı ikinci paraqrafda C.Ris, A.Mördok, D.Lessinqin dövrlərinin mürəkkəb sosial, psixoloji və ekzistensial problemlərini əks etdirməklə yanaşı, gender identikliyini və qadın özünüdərk məsələlərini təsvir edən əsərləri, o cümlədən, A.Karter və M.Drabl yaradıcılığında gender rollarının bədii rekonstruksiyası məsələləri araşdırılır.

C.Risin əsərlərində postkolonial ədəbiyyatda gender identikliyini axtaran, öz kimlikləri ilə mübarizə aparan, özgələşmiş qadın obrazları əks olunur. A.Mördok isə ekzistensial fəlsəfəni insan münasibətləri və gender dinamikası ilə birləşdirir. Onun obrazları əxlaqi dilemmalar, sevginin təbiəti və gender rollarının mürəkkəbliyi

---

[65] Woolf, V. Orlando / V.Woolf. – London: Modern classics, – 2000. – 336 p.

[66] Ağabəyli V.E. Virciniya Vulfun əsərlərində gender tədqiqatlarına modernist yanaşma // – Bakı: Filologiya məsələləri, – 2022. № 14, – s. 294-303; Ağabəyli, V.E. Bədii ədəbiyyatda müharibə mövzusunun genderoloji xüsusiyyətləri // Bakı: Dil və Ədəbiyyat, ADU, – 2022. №1, – c. 12. – s. 46-55.

ilə mübarizə aparır. D.Lessinqin əsərləri isə ikinci dalğa feminizm kontekstində qadınların psixoloji və sosial mübarizələrinin təsviri ilə seçilir. O, ənənəvi gender rollarını tənqid edərək, gender, siyasət və psixologiyanın kəsişməsini təqdim edir.

"Geniş Sarqasso dənizi"[67] əsərində C.Ris Antoinette/ Bertanı təsvir etmək üçün Brontenin romanından ön mətn kimi istifadə edir. C.Ris həm Antuanetta, həm də Roçesterə dəstək verməklə iki fərqli və bir-birinə zidd subyektivliyi hərəkətə gətirərək, kişi-qadın münasibətləri qarşıdurması yaradır.

C.Risin "Geniş Sarqasso dənizi", A.Mördokun "Zəng", "Qara Şahzadə", D.Lessinqin "Qızıl dəftər" əsərlərini gender tədqiqatları baxımından araşdırdıqda aydın olur ki, onlar XX əsrin ortalarında gender problemlərinin daha dərindən dərk edilməsinə töhfə verməklə yanaşı, sürətlə dəyişən dünyada qadınların üzləşdiyi problemlər və ziddiyyətlər haqqında zəngin perspektivlər təqdim edir. Onların əsərləri gender identikliyinin şəxsi və ictimai ölçülərinin bədii kəsişməsini özündə əks etdirir.

XX əsrin sonlarında gender identikliyi ilə bağlı yeni perspektivlər təqdim etmək üçün A.Karter mif, fantaziya və M.Drabl realizmdən istifadə edərək ənənəvi gender təhkiyəsini, qəlibləşmiş gender normalarını postmodern yanaşma ilə rekonstruksiya etdilər.

A.Karter və M.Drabl feminist ədəbi mənzərənin görkəmli simaları kimi ortaya çıxaraq, ənənəvi gender təhkiyəsinə meydan oxuyur və rekonstruksiya etmək üçün postmodern üsullardan istifadə edir. Mif və fantaziyadan istifadəsi ilə tanınan A.Karterin "Qanlı palata", "Yeni İvin ehtirası", "Sadeian qadını" [68] əsərlərinə əsasən deyə bilərik ki, o, ənənəvi gender rollarını alt-üst edir, məlum hekayələrin yaradıcı və yeni təsəvvürünü təqdim edir. Onun əsərləri reallıq və fantaziya arasındakı sərhədləri pozaraq, gender və şəxsiyyətin necə başa düşülə biləcəyinin sərhədlərini də qarışdırır. Katerin spekulyativ ədəbiyyat vasitəsilə patriarxal strukturları

[67] Rhys, J. Wide Sargasso Sea. / J.Rhys. – New York: Penguin, – 1966.

[68] Carter, A. The Bloody Chamber, Burning Your Boats: Collected Short Stories / A.Carter. – London: Vintage, –1993. –p.111-143; Carter, A. The Passion of New Eve / A.Carter. – New York: Virago, – 1992. – 187 p.; Carter, A. The Sadeian Woman and the Ideology of Pornography / A.Carter. – New York: Virago, – 1978. – 154 p.

müzakirə etməsi sadə təhkiyədən kənara çıxır. Yazıçının əlində bədii əsərlər sosial tənqid, düşüncə və alternativ yolların müzakirəsi üçün həssas, dərin bir vasitəyə çevrilir. Bununla da, yazıçının əsərləri spekulyativ bədii ədəbiyyatda gender, güc və sosial dəyişiklik ətrafında gedən müzakirələrə önəmli fayda verir.

M.Drabl "Dəyirman daşı" "İynənin gözü", "Parlaq yol", "Şəlalə", "Eksmur cadugəri"[69] əsərlərində qadın həyatının mürəkkəbliyini təsvir etmək üçün realizmdən istifadə edərək, onların şəxsi mübarizələrinə və ictimai rollarına diqqət yetirir. Onun əsərləri qadın şəxsiyyətinin incəliklərini araşdıraraq, çox vaxt şəxsi istəklər ilə sosial gözləntilər arasındakı gərginliyi vurğulayır. Bu yazıçıların öz dövrlərinin inkişaf edən feminist diskursunu əks etdirərək ədəbiyyatda gender və identikliyin daha zəngin, daha müxtəlif təsvirinə kifayət qədər töhfə verdiyini vurğulaya bilərik.

Bu paraqrafda aparılan təhlillər və əldə olunan nəticələrin bir qismi "Spekulyativ ədəbiyyatda gender məsələləri: Anjela Karter yaradıcılığı", "Gender Representation in Postcolonial Literature", "Jean Rhysin "Wide Sargassa Sea" əsərində gender identikliyi" [70] adlı nəşrlərdə öz əksini tapmışdır.

**"Feminist utopiyasının gender xüsusiyyətləri"** adlı növbəti paraqrafda feminist utopiya ədəbiyyatında qadın obrazının dəyişdiyi, qadının cəmiyyətdə kişi ilə bərabər gücə və nüfuza malik, bəzən hətta daha üstün mövqeyə sahib bir varlıq kimi təqdim olunma cəhdləri təhlil edilir.

Meri E.Bredli Leynin feminist utopiyası rus əsilli bir xanımın,

---

[69] Drabble, M. The Millstone / M.Drabble. – London: Harper Perennial, – 1998. – 192 p.; Drabble, M. The Needle's Eye. / M.Drabble. – London: Mariner books, – 2004. – 444 p.; Drabble, M. The Radiant Way / M.Drabble. – London: Penguin Books, – 2005. – 396 p.; Drabble, M. The Waterfall / M.Drabble. – London: Penguin, – 2005. – 240 p.; Drabble, M. The Witch of Exmoor / M.Drabble. – London: Harper Perennial, – 1998. – 264 p.

[70] Ağabəyli V.E. Spekulyativ ədəbiyyatda gender məsələləri: Anjela Karter yaradıcılığı // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri (humanitar və ictimai elmlər), – 2024. №1, – s.39-44; Aghabayli, V.E. Gender Representation in Postcolonial Literature // – Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2020. №1 (18), – p.67-73; Ağabəyli, V.E. Jean Rhysin " Wide Sargassa Sea" əsərində gender identikliyi // XVI Respublika Elmi Qaynaqlar konfransı, Elmi İş, Beynəlxalq Elmi jurnal, – Bakı: – 12 mart, – 2024, – s. 13-17.

siyasi sürgünün qurbanı olan Vera Zaroviçin şimal qütbündə yeni bir aləmə, "Mizora" [71] aləminə səyahətinin və orada keçirdiyi on beş ilin hekayəsidir. "Mizora"da var-dövlət deyil, elm, bilik əhəmiyyət kəsb edir, kasıblıq və xəstəlik kimi məfhumlar yoxdur. Yalnız, qadınlardan ibarət olan, sarışın, olduqca məlahətli, elmi biliyə sahib olan, yüksək keyfiyyətli təhsil sisteminə və dövlət idarəetməsinə sahib olan bu cəmiyyətdə kişilər mövcud deyil. Bundan əvvəl ingilis ədəbiyyatında utopik qadın cəmiyyətlərinin təsvirində kişilər müəyyən bir rola malikdir. Onlara qarşı mövqe bu qədər sərt deyil. Mizora cəmiyyətində isə kişilərə ümumiyyətlə nə yer, nə də ehtiyac var və müəllif yəqin ki, özünün aid olduğu cəmiyyətlə müqayisə apararaq qəhrəmanın dilindən münasibətini sərt şəkildə ifadə edir, kişilər dəyərli hər şeyə sahib olmağa çalışan, ağalıq iddiasında olan varlıqlar kimi təqdim olunur.

L.F.Diksinin "Pataqoniya boyunca", "Erkən xilas olanlar", "Qloriana və ya 1900 İnqilabı" əsərlərində feminist baxışlar, qızların gücü və cəsarəti tərənnüm olunur. Diksi hesab edir ki, təbiət cinslər arasında təzad deyil, yoldaşlıq arzu edir, burada qeyri-sağlam rəqabətə, intriqa və qısqanclıqlara yer yoxdur[72].

H.C.Uells "Müasir Utopiya"[73] ("Modern Utopia") əsərində utopik cəmiyyətin məziyyətlərini sadalayarkən qadınların vəziyyətinin təsvirinə xüsusi yer ayırır. O, qadının cəmiyyətdəki yerinin dəqiqləşməməsini utopiya üçün böyük problem hesab edir, həll edilməsi qadın üçün deyil, kişinin rifahı üçün də əhəmiyyət daşıyan problem. Maraqlı olan odur ki, bu problem qadının identikliyi, individuallığı ilə əlaqəli deyil, onun evlilik və valideynliyi ilə bağlıdır. Bu, Uellsin qarşısına qoyduğu məqsədi, yeni paralel dünyada qadının yerini təyin etməsini asanlaşdırır desək yanılmarıq.

Ş.P.Qilmanın "Herland", "Herland Trilogy", "The Yellow Paper" utopiyasında təsvir etdiyi qadınlar şəxsiyyət kimi inkişaf edib. Onlar əks cinsin tərifinə, komplimentinə ehtiyac hiss etməyən,

---

[71] Bradley, M.E. Mizora: A Prophecy: [Electronic resource]. 04.03.2008 URL: www.gutenberg.org/files/24750/24750-h/24750-h.htm.

[72] Dixie, F.L. Gloriana, or, The revolution of 1900 / F.L.Dixie. – UK: Standard Publishing Co., – 1890. – 286 p.

[73] Wells, H.G. A Modern Utopia: [Electronic resource]. – Feedbooks, – 1905. URL: http://www.gutenberg.org/etext/6424.

bəzəkli, nazlı davranışa möhtac olmayan tam sərbəst yeni nəsildir. Kişilərin ideoloji dəyişimi üçün qadınların özlərinin dəyişməsi vacib addımdır. Artıq cinslər arasındakı fərq aradan qalxıb, qadın və kişi yoxdur, insan var. Bu cəmiyyətdə keçmişdəki kimi yorğun, əldən düşmüş, gərgin qadın, ana yoxdur. Bu cəmiyyətdə ixtisaslaşmış, təhsilli intellektual insanlar, vətəndaşlar var. Bu xoşbəxt cəmiyyəti qurmağın yeganə bir yolu var: *"When women were really free of man's selective discrimination they proved quite educable, and learned to be ashamed of their deformities."*[74] – (Qadınların bu oyanışı baş verməzsə, dünyanın gələcəyi böyük təhlükədə olar, kişilər bir-birinin axırına çıxmaq üçün daim mübarizədə olardı.)

Bu paraqrafdakı təhlillər və əldə edilən nəticələrin bir qismi "Müasir dövrdə feminist utopiyası"[75] adlı məqalədə öz əksini tapmışdır.

IV fəslin sonuncu paraqrafı **"Azərbaycan ədəbiyyatında qadın özünüdərk məsələləri"** adlanır. Bu paraqrafda Azərbaycan ədəbiyyatında XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər gender identikliyinin inkişafı və qadın probleminin bədii təsvirindəki dəyişiklik izlənilir və şərh edilir. N.Vəzirov "Müsibəti-Fəxrəddin", "Daldan atılan daş topuğa dəyər", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük"[76] əsərlərində dini xurafata, çoxarvadlılığa, erkən nikaha, qadınlara fiziki zorakılığa qarşı çıxmaqla, müsəlman avamlığı, mollalar, radikal dindarlar, yaşlı kişilərin azyaşlı qızlarla evlənməsi, qızın söz və səlahiyyət sahibi olmaması, qadının çadraya məhkum olması, cahil və mövhumat düşkünü ailələrin əsarətində böyüməsi, təhsilsiz olması tənqid edilməklə yanaşı, elmin, təhsilin təbliğatına yer ayırır.

C.Məmmədquluzadənin "Köhnə dərdim", "Danabaş kəndinin əhvalatları", "Pirverdinin xoruzu", "Təzə xəbər", "Rus qızı", "İki ər", "Ölülər"[77] əsərlərində iqtisadi asılılıq, savadsızlıq, radikal dindarlıq

---

[74] Gilman, Ch.P. The Herland Trilogy. / Ch.P.Gilman. – USA: Start Publishing LLC, – 2012. – p.77

[75] Ağabəyli V.E. Müasir dövrdə feminist utopiyası // World Women Conference-V International Conference, – Baku: – March 7-8, –2023, – s. 207-217.

[76] Vəzirov, N. Əsərləri. / N.Vəzirov. – Bakı: Şərq-Qərb, – 2005. – 304 s.

[77] Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər nəşriyyatı, – I c. – 2004. – 664 s.

qadının hüquqlarını məhdudlaşdıran ən əsas amillər olaraq vurğulanır. O, "Ölülər" əsərində İsgəndər obrazı ilə cəmiyyətin cahilliyi, qızların erkən evliliyi, hüquqsuzluğu ilə mübarizə aparır. "Ölülər" əsərində gender problemləri, erkən mərhələlərdə genderlərarası rol bölgüsü, qadın hüquqsuzluğu açıq şəkildə ifşa olunur. Qızlar doğulandan bəri yalnız ailə qurmağa, evdarlığa, uşaq baxımına hazırlaşdırılır. Təbiətdə baş verən gözəlliklərin heç biri qızlar üçün deyil.

Gender tədqiqatları baxımından C.Məmmədquluzadənin "Köhnə dərdim" məqaləsi, 1917-ci il oktyabr inqilabından sonra yazdığı "Qiyamət", "Eydi-Rəməzan"[78] kimi əsərləri çox böyük önəm daşıyır. Oktyabr inqilabından sonra Azərbaycan qadınına kişilərlə bərabər hüquq verilməsi məsələsi gündəmə gəlir. O, "Qiyamət" əsərində inqilabın gedişatını və cəmiyyətin, xüsusilə də, bütün sahələrdə dominantlıq edən kişilərin münasibətini təsvir edir. Cəmiyyətin parlaq, ağıllı qadınları, çadralarını başından ataraq, üzüaçıq şəkildə, kişilərin önündə cəsarətlə çıxış edərək öz hüquqlarını tələb edir, problemlərini dilə gətirirlər. Onlar pərdə arxasında qalmaqdan, hərəmxanalarda hərəm, dustaq, kəniz həyatı yaşamaqdan, kişilərə qulluq edib onların hər bir əziyyət və zülmünə dözmək, istəklərinə cavab verməkdən, hicabın altına salınaraq məhbus həyatı yaşadıqlarından gileylənərək bir-bir çadralarını atırlar. Qadınları çadra altına salaraq, itaətdə saxlayan mollalar şorgöz kişilərdə – öz qardaşı arvadına, dostunun arvadına, yaxın qohumuna göz qoyan kişilərdə günah görmür, lakin qadınları gizlənməyə məhkum edir. C.Məmmədquluzadə əsərdə qadın obrazları ilə yanaşı, kişi obrazlarını da təhlil edərək, onların dominantlıq etdiyi idarəçiliyi əllərindən verməməyə çalışdığını göstərir. İqtisadi və sosial mühitdə kişilərlə eyni statusa malik olacaq qadınların fəaliyyəti kişiləri narahat edir.

Bu fəsildə biz feminist ədəbiyyatın inkişafını və qadın (female) ədəbiyyatının formalaşmasının şahidi olduq. V.Vulfun, E.M.Forsterin, D.H.Lourensin, C.Risin, A.Mördokun, D.Lessinqin, A.Karterin, M.Drablın, Ş.P.Qilmanın yaradıcılığında gender

[78] Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər nəşriyyatı, – I c. – 2004. – 664 s.

identikliyi axtarışını, ənənəvi gender rollarının dekonstruksiya olunduğunu, bu müəlliflərin dövrün sosial normalarına meydan oxuduqlarını və qadınlar üçün yeni alternativləri təsvir etdiklərini gördük. Azərbaycan ədəbiyyatında isə N.Vəzirov və C.Məmmədquluzadənin əsərlərində qadın problemini araşdırdıq. Doğrudur, Qərb qadını hüquqsuz olsa da, iqtisadi cəhətdən asılı olsa da, həmin dövr üçün Şərq qadınının vəziyyəti daha ağırdır. O, hüquqsuz, kişilərə kölə olmaqla yanaşı, həm də qapalıdır, çadra altındadır. Yaşadığı dünyanı, məkanı tanımır. Bu hal isə onu cismən xəstə, əqlən zəif edir, o həm də adi bir ev əşyasına bənzəyir.

Ümumilikdə, bu fəsil üzrə təhlillərimiz və gəldiyimiz qənaətlərin bir qismi "Unique Stanpoints of the Distinctive British Feminist Writers of the 20th century: Regarding Gender Concerns", "Exploring Gender Concerns in Literature: Examinining the Pioneering Azerbaijani Writer's Perspectives on Gender in Comparison to Western Authors" [79] adlı məqalələrdə çap olunmuşdur.

**"Müasir ingilis və Azərbaycan ədəbiyyatında gender identikliyinin dəyişkən dinamikası"** adlı **V fəsil** dörd paraqrafdan ibarətdir.

**"İngilis ədəbiyyatında ikili gender standartları: identiklik və fərqlilik"** adlı paraqrafda müasir dövrdə həm Britaniya ədəbiyyatı, həm də Azərbaycan ədəbiyyatının gender identikliyinə münasibətdə əhəmiyyətli transformasiyanın şahidi olması, müasir yazıçıların əsərlərində genderin müxtəlifşəkilli, ikili standartlardan kənar bədii təsviri araşdırılır və şərh edilir.

Feminizmin üçüncü dövr dalğasından sonra artıq qadınlar tam müstəqilliyini əldə etmiş və sosial, iqtisadi cəhətdən özlərini azad hiss edirdilər ki, Qərb yazıçılarına qadının əzilməsini, bərabərsizliyini, sıxışdırılmasını, seksual azadlığını müdafiə etməyə

---

[79] Aghabayli, V.E. Unique Standpoints of the Distinctive British Feminist Writers of the 20th Century. Regarding Gender Concerns // – Slovak Republic: Path of Science: International Electronic Scientific Journal (Traektoriâ Nauki), – 2024. №3, vol.10, – p. 4007-4016; Aghabayli, V.E. Exploring Gender Concerns in Literature: Examining the Pioneering Azerbaijani Writer's Perspectives on Gender in Comparison to Western Authors // – Cuba: Universidad Y Sociedad, "Repensar las publicaciones desde un nuevo saber", – 2024. vol.16, num.2, – p. 331-338.

bir o qədər də ehtiyac qalmadı. Buna görə də, müasir dövrdə artıq Queer ədəbiyyatı formalaşmağa başlayır. Düzdür, V.Vulfun “Orlando” əsərində üçüncü cins məsələsi ortaya çıxsa da, müasir dövr Britaniya ədəbiyyatında diqqət çəkən bir tendensiya gender dəyişkənliyinin və qeyri-binar şəxsiyyətlərin tədqiqidir.

A.Smitin “İkisi birdən”[80] və C.Uintersonun “Frankissstein”[81] kimi əsərləri adi gender kateqoriyalarına qarşı çıxan obrazları təqdim edərək oxucuları müəyyən edilmiş normaları yenidən nəzərdən keçirməyə, ikili gender standartlarından çıxaraq gender kimliyinin fərqli formalarını axtarmağa vadar edir. Hər bir romanın özünəməxsus yanaşması olsa da, hər ikisi XXI əsrdə gender kimliklərinin inkişaf edən təbiəti haqqında daha geniş ədəbi diskursa yenilik gətirir.

Həm “İkisi birdən”, həm də “Frankissstein” əsərinin müəllifləri gender dəyişkənliyi və qeyri-binar identiklikləri mürəkkəb obrazlar vasitəsilə oxucularda müxtəlif gender identikliyi üçün empatiya anlayışı gücləndirməyə və bununla yanaşı, genderlə bağlı ictimai normaları yenidən nəzərdən keçirməyə təşviq edir.

Bernardine Evaristonun “Qız, Qadın, Digəri” romanındakı qadın hekayələri əsərin əsas məğzini təşkil edərək, dominant siyasi strukturlardan kənarlaşdırılan və ya diqqətdən kənarda qalan qadınların “səslərinin” üzə çıxmış formasıdır. Bu cəmiyyətdə qəhrəmanların hər birini özünəməxsus şəkildə xarakterizə edən fərqliliklərinə görə damğalanırlar. Zülmün yaratdığı zəifliyə baxmayaraq, onlar öz fərqliliklərindən əl çəkmirlər, lakin bu, onlara özlərini və dünyanı təcrübədən keçirməyə yeni həyat məkanları verir. Evaristo qadınların görünməzliyini, damğalanmasını və başqalaşma prosesini təsvir edərək sübut edir ki, *“yazı, ədəbiyyat məhz dəyişmə imkanıdır, hər cür düşüncənin üzə çıxması üçün tramplin rolunu oynayan məkandır, sosial və mədəni həyatın xəbərçisidir”*[82].

---

[80] Smith, A. How to be Both. / A.Smith. – London: Kindle Edition, – 2014. – 376 p.

[81] Winterson, J. Frankissstein: A Love Story. / J.Winterson. – London: Vintage Digital, – 2019. – 344 p.

[82] Evaristo, B. Girl, Women, Other. / B.Evaristo. – London: Hamish Hamilton, – 2019. – p.57.

**“Qeyri-ənənəvi gender identikliyinin ingilis ədəbiyyatında təzahürü”** adlı ikinci paraqrafda “Queer” ədəbiyyatı, bədii ədəbiyyatda üçüncü cins problemi, ikili gender kimliklərinin problemlərinin bədii təsviri araşdırılır.

Öncəki fəsillərdə qeyd edilmişdi ki, Şoulterin feminist ədəbi kanonunun təhlili üzrə bölgüsü yetərli deyil. Onun “Female” (qadın) mərhələ ilə bağlı dediklərini 1920-1980-ci illər arasında keçərli hesab etmək olsa da, feminizmin üçüncü dalğası, dördüncü dalğası və 90-cı illərin ortasından ədəbiyyat üzərində də təsirini artıran “queer” nəzəriyyəsi hal-hazırkı mərhələdə qadın yazısını bu kateqoriyaya aid edə bilmir. “Queer” nəzəriyyəsi – üçüncü cinslərin, gey, lezbiyan, homoseksualların tərifini verməklə yanaşı, onların cinsi və sosioloji, intellektual və siyasi xüsusiyyətlərini açıqlayan, tarixi və mədəni inkişaflarını təsvir edən və demək olar ki, bu cür meyllərin normal olduğunu sübut etməyə çalışan bir nəzəriyyədir.

Bu paraqrafda XXI əsr Britaniya ədəbiyyatında queer hekayələrinin müxtəlifliyini əks etdirən əsərlərdən A.Hollinqurstun “Gözəllik xətti”[83], C.Uintersonun “Portağallar yalnız meyvə deyil”[84], Sarah Uotersin “Məxmərə toxunuş”[85], O.Uayldın “Dorian Qreyin portreti”[86] kimi əsərlərində gender identikliyi və fərqliliyi, qeyri-ənənəvi gender identikləri araşdırılır. Bu əsərlər qadın kimliyi, kişi kimliyi və ya digər cinsin kimliyi, cinsiyyət və dini gözləntilərin birləşmə nöqtələrini təsvir edərək, gender rollarının mürəkkəbliyi, gender identikliyi və fərdi orijinallığın qəbul olunması ilə bağlı kəskin şərh verir.

Gördüyümüz kimi, XXI əsrin ədəbi mühitində XX əsrin çox hissəsini səciyyələndirən stiqma, utanc və kateqorik düşüncə anlayışları getdikcə gender, seksuallıq və cinsiyyətə aid olan müxtəlifliyin qiymətləndirilməsi və təhlili ilə əvəz olunur.

**Azərbaycan ədəbiyyatında yeni qadın obrazları”** adlı üçüncü paraqrafda qeyd olunur ki, Azərbaycan ədəbiyyatı ənənəvi

---

[83] Hollinghurst, A. The Line of Beauty. / A.Hollinghurst. – London: Pan Macmillan, – 2014. – 339 p.

[84] Winterson, J. Oranges Are Not the Only Fruit. / J.Winterson. – Grove Press, – 1985. – 176 p.

[85] Waters, S. Tipping the Velvet. / S.Waters. – London: Virago, – 1998. – 472 p.

[86] Wilde, O. The Picture of Dorian Gray. / O.Wilde. – Penguin Classics, – 2000. – 304 p.

olaraq gender rollarına daha mühafizəkar yanaşma ilə səciyyələnsə də, XX və XXI əsrin unikal mədəni kontekstində tədricən gender kimliyi ilə bağlı ədəbi inkişaf C.Cabbarlı, Y.V.Çəmənzəminli, H.Cavid və başqaları kimi bir çox azərbaycanlı yazıçıların müasir gender rollarına təsiri ilə xarakterizə edilir.

Y.V.Çəmənzəminli "Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Arvadlarımızın məişətindən", "Müsəlman arvadının sərgüzəştləri", "Qumarbazın arvadı", "Ana və analıq", "Toy", "Namussuz", "Üç gecə" [87] və s. hekayələrində erkən evliliyi, qohum evliliyini, görücü üsulu ilə evliliyi, təhsilsiz qızların həyatını, qadınların döyülməsini, məktəbdən yarımçıq ayrılıb ərə verilməsini, qız-qadınların hüquqsuzluğunu tənqid edir, Azərbaycan qadının keşməkeşli həyat tərzini, yaşadıqlarını, üzləşdiyi problemləri təsvir edir.

XX əsr Azərbaycan ədəbiyyatında qadın problemini ən çox işıqlandıran, qadına səhnə verən feminist yazıçı Cəfər Cabbarlı idi. Onun əsərlərinə, hekayələrinə fikir versək bir çoxunun adı da qadın adıdır. Çünki onun məqsədi Azərbaycan qadının azadlığı, təhsili, səlahiyyətlərinin artırılmasının təbliği idi. Cabbarlı qız-qadınların üzləşdikləri çətinlikləri vurğulayıb, onların zəifləri və əzilmələri ilə yanaşı, müti həyatdan çıxış yolunu təhsil olaraq təqdim edir. Onun "Gülər", "Gülzar", "Dilbər" kimi hekayələrində, o cümlədən, "Arvadlar deyirlər", "Hürriyyəti-nisvançılara protesto", "Kişilər deyirlər", "Qızlardan kişilərə protesto" [88] kimi nəzm əsərlərində də qadın azadlığı, hüquqları, təhsilə çağırış var.

---

87 Çəmənzəminli, Y.V. Arvadlarımızın halı. / Y.V.Çəmənzəminli. – Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, – 1913. – 36 s.; Çəmənzəminli, Y.V. Qanlı göz yaşları: Arvadlarımızın məişətindən. / Y.V.Çəmənzəminli. – Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, – 1913. – 32 s.; Çəmənzəminli, Y.V. Əsərləri: [3 cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: "Avrasiya-press", – I c. – 2005. – 360 s.; Çəmənzəminli, Y.V. Əsərləri: [3 cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: "Avrasiya-press", – III c. – 2005. – 440 s.

88 Cabbarlı, C. Hekayələr. Dilara. / C.Cabbarlı. – Bakı: Gənclik, – 1970. – 112 s.; Cabbarlı, C. Hürriyəti-Nisvançılara protesto: [Elektron resurs]. 23.05.2017. URL: https://az.wikisource.org/wiki/H%C3%BCrriy%C9%99ti-Nisvan%C3%A7% C4 %B1lara_protesto; Cabbarlı, C. Qızlardan kişilərə protesto: [Elektron resurs]. 25.05.2017. URL: https://az.wikisource.org/ wiki/Q% C4% B1zlardan_ki%C5% 9 Fil%C9%99r%C9%99_protesto.

1928-ci ildə yazılan “Sevil”[89] həm də, Azərbaycan ədəbiyyatında ilk feminist əsər və Şərq qadının azadlıq və inkişaf yolu üçün bir mayak hesab edilə bilər. Çünki Sevilin timsalında yazıçı passiv, müti, cahil, savadsız bir Azərbaycan qadının bir ziyalıya qədər yüksələ biləcəyi inkişaf xəttini təsvir edib. Bu xətt, bu yol Azərbaycan qadını üçün ümiddir, inamdır.

Finaldakı xoşbəxt sonluq ənənəvi olaraq oxucunun gözlədiyi evlilik, Balaşla yenidən qovuşa bilmək xəyalları deyil, məhz bir qadının iqtisadi azadlığı və sırf özünə inamla təkbaşına qurduğu həyatdır. Bütün bununla da kifayətlənməyən yazıçının “Sevil” pyesini 1928-ci ildə tamaşaya qoyması, çadrasını atan azərbaycanlı qızın səhnədə təmsili nəinki Azərbaycan qadını, o cümlədən, Şərq qadınlarının azadlığı üçün açılan bir yol idi.

Cabbarlının “Sevil”dən sonra yazdığı “Almaz”[90] əsərində də, mübariz, cəsarətli və təhsilli qadın obrazı, uzun illər din pərdəsi adı altında şəriət qaydaları ilə cəmiyyəti idarə edən mollaların qadınları həm fiziki, həm cinsi, həm psixoloji zorakılığa düçar etməsi, öz əllərindəki hakim gücü əldən verməmək, şəriət ənənələrini əldə saxlamaq üçün dindən istifadə edərək insanların beynini istədikləri kimi idarə etməyə çalışması təsvir edilmişdir.

Bütün bu təhlillərimiz onu deməyə əsas verir ki, C.Cabbarlının əsərlərində öncəki dövrün yazıçılarının əsərləri ilə böyük fərq var. Əvvəlki dövrün əsərlərində qızlar və qadınlar yalnız çadrada, çadradan çıxmaq uğrunda savaşda təsvir edilir, məktəbə və təhsilə səslənirdirsə, C.Cabbarlının qadın obrazları təhsillidir, çadrasızdır, amma yenə də sosial-bərabərsizlik və hüquqsuzluqdan əziyyət çəkirlər. C.Cabbarlı onları iqtisadı azadlığa səsləyir. M.Cəlilin, Y.V.Çəmənzəminlinin ata obrazlarından fərqli olaraq, C.Cabbarlının ata obrazlarının bir çoxu qızlarını təhsilli görmək istəyidir.

XX əsr Azərbaycan ədəbiyyatında qadın əsarətinə qarşı çıxan H.Cavid göstərirdi ki, qadın əsarətini qanuniləşdirən,

---

[89] Cabbarlı, C. Əsərləri: [3 cilddə] / C.Cabbarlı. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – I c. – 1968. – 410 s.

[90] Cabbarlı, C. Əsərləri: [4 cilddə] / C.Cabbarlı. – Bakı: “Şərq-Qərb”, – III c. – 2005. – 368 s.

müdafiə edən həmişə din ehkamı, şəriət və müsəlmanlıq olmuşdur. Onun bədii əsərlərində qadın məsələsi öz aktuallığı və fərqliliyi ilə qabarıq şəkildə seçilir. Yazıçı ədəbi yaradıcılığa başladığı vaxtdan "Qadın", "Qız məktəbində", "Şərq qadını", "Vərəmli qız", "Pəmbə çarşaf", "Dəniz pərisi", "Get", "Qəmər", "Bir qızın son fəryadı" adlı şeirlərində[91] qadın problemlərinə böyük maraq göstərmişdir. O, "Şərq qadını" poemasında dini mövhumatın, feodal əxlaqının, cəhalətin hökm sürdüyü, köhnəlmiş adət və ənənələrin davam etdiyi bir cəmiyyətdə qadınların üzləşdiyi çətinlikləri təsvir etmişdir. O, qadınların iztirablarının kökünü onların hüquq və muxtariyyətini inkar edən hakim sosial norma və qaydalarla əlaqələndirdi.

Cavidin "Maral"[92] pyesi, "Afət"[93] dramında qadınları öz hüquqlarını fəal şəkildə müdafiə etməyə çağıraraq bərabərliyə nail olmağın təhsil və tərəqqidən keçdiyini vurğulayırdı. O, mütərəqqi ideyaların tərəfdarı kimi inanırdı ki, təhsil və bilik qadınlara cəmiyyətdə töhfə verən şəxslər olmaq imkanı yaradacaq. O, qadının gözəlliyini zahiri görkəm və ya var-dövlət kimi səthi xüsusiyyətlərdə deyil, "Qız məktəbi" şeirində ifadə etdiyi kimi onun təhsilində, biliyində, intellektual yüksəlişində görürdü.

**"Azərbaycan ədəbiyyatında gender probleminə müasir baxış"** adlı sonuncu paraqrafda İ.Əfəndiyevin, S.Qədirzadənin[94] əsərlərindəki qadın obrazları və gender rolları ilə yanaşı, "Şərq qadını" jurnalı ətrafında birləşən azərbaycanlı yazıçı qadınlar və müasir dövr Azərbaycan ədəbiyyatının yazıçı qadınlarının əsərləri gender tədqiqatları baxımından təhlil və şərh edilir.

İ.Əfəndiyevin "Məhv olmuş gündəliklər" əsərindəki Fəridə və Fəridənin anası, "Körpüsalanlar" [95] əsərində isə Səriyyə, "Sarıköynəklə Valehin nağılı"nda Sarıköynək obrazları patriarxal

---

[91] Cavid, H. Əsərləri: [5 cilddə] /H.Cavid. – Bakı: Lider nəş., – I c. – 2005. – 256 s.
[92] Cavid, H. Əsərləri: [5 cilddə] /H.Cavid. – Bakı: Lider nəş., –II c. –2005. – 352 s.
[93] Cavid, H. Əsərləri: [5 cilddə] /H.Cavid. – Bakı: Lider nəş., –III c. –2005. –304 s.
[94] Qədirzadə, S. Təbəssümün mükafatımdır. Hekayələr, povestlər, komediyalar. / S.Qədirzadə. – Bakı: Yazıçı, – 1981. – 454 s.
[95] Əfəndiyev, İ. Seçilmiş əsərləri: [7 cilddə] / İ.Əfəndiyev. – Bakı: "Çinar-Çap" nəşriyyat-poliqrafiya müəssisəsi, – III c. – 2002. – 624 s.; Əfəndiyev, İ. Seçilmiş əsərləri. / İ.Əfəndiyev. – Bakı: Kitab klubu, Çinar Çap, – 2015. – 536 s.

ənənələrin dəstəkçisi deyillər, kişi boyunduruğuna yuvarlanmırlar, əksinə, təhsilli qadınlara xoşbəxtlik üçün iqtisadi, sosial və hətta psixoloji azadlığın önəmli olduğunu vurğulayırlar.

Bundan başqa, bu paraqrafda Azərbaycanın ilk qadın dramaturqu, ilk qadın rejissor, roman janrında yazan ilk azərbaycanlı qadın yazıçı S.Axundzadənin, Azərbaycanın ilk maarifçi, yazıçı, publisist qadınlarından biri Ş.Əlizadənin, Azərbaycanın ilk feministlərindən hesab edilən X.Əlibəyovanın, Q.Məlikovanın, A.Sultanovanın yaradıcılığı, M.Dilbazi, N.Rəfibəyli, Ə.Babayeva, X.Hasilova, Ə.Cəfərzadə, X.Əlibəylinin fəaliyyəti, ən müasir dövr Azərbaycan ədəbiyyatında A.Məsud, Bani, Bircə, A.Əlizadə N.Kamalın əsərlərində gender məsələlərinə münasibət araşdırılır.

Ümumilikdə, V fəsildəki təhlillərimizdən aydın olur ki, istər ingilis, istərsə də, Azərbaycan ədəbiyyatında gender identikliyinin dinamikası dəyişib. İngilis ədəbiyyatında gender identikliyi və fərqliliyinin iki standartlardan çıxaraq, sabit kimliklə razılaşmama, qeyri-ənənəvi gender obrazlarının bədii təsviri və dünyanın dəyişkən gender mənzərəsini görürük. Azərbaycan ədəbiyyatında isə çadrasız, savadlı, iqtisadi boyunduruqdan azad, eyni zamanda sərbəst düşüncəli və özünü kəşf etmiş qadın obrazlarının bədii təsviri, xüsusilə də, qadın yazıçılarının ədəbi yollarının inkişafı gender perspektivləri baxımından önəmlidir.

Bu fəsildəki təhlillərimiz və qənaətlərimiz "Bədii tərcümədə gender identikliyinin tədqiqi (ingilis və Azərbaycan ədəbiyyatı əsasında)" "Perspectives on Gender Identity in Modern British and Azerbaijani Literature" [96] adlı tezis və məqalədə öz əksini tapmışdır.

Dissertasiyada aparılan tədqiqatlardan əldə olunan qənaətlər ümumiləşdirilərək **Nəticə** hissəsində təqdim edilmişdir:

---

[96] Ağabəyli, V.E. Bədii tərcümədə gender identikliyin tədqiqi (İngilis və Azərbaycan ədəbiyyatı əsasında) // "Tərcüməşünaslığın müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları, – Naxçıvan: Naxçıvan Universiteti nəşriyyatı, – 30 yanvar, – 2024, – s. 64-69; Aghabayli, V.E. Perspectives on Gender Identity in Modern British and Azerbaijani Literature // – Riga: Baltic Journal of Legal and Social Sciences (Baltijas Žurnāls), – 2024. №1, – p. 232-240.

Biz Qərb ədəbiyyatında feminizm dalğalarının təsirində baş verən müsbət və mənfi dəyişiklikləri izləyərkən, aydın olur ki, feminist hərəkatlar gender tədqiqatlarının formalaşmasına, qadın ədəbiyyatı, feminist ədəbi tənqidin yaranmasına, zəngin ədəbi mühitin formalaşmasına şərait yaradıb. Bu hadisələrin müsbət tərəfidir. Əvvəllər qadın və kişi arasında diskriminasiya məsələsini düşünməyi və ya müzakirə etməyi ağlına gətirməyən cəmiyyətlərdə məsələ feminizm vasitəsilə ortaya çıxarıldı. İlkin mərhələdə, qadın hüquqları və azadlığı məsələləri qadın problemlərinin həlli üçün ədəbiyyata yol açdı. İkinci mərhələdə isə, ədəbiyyatda qadınlar kişilərlə mübarizədə idi, onlar qadınların daha üstün olduqlarını, onlara təhsil, səsvermə hüquqlarının, sosial, iqtisadi, psixoloji azadlığın verilməsini tələb edirdilər. Üçüncü mərhələ yazıçıları isə artıq öncəki mərhələlərdə qaldırılmış problemlərin həll olunduğunu düşünürdü, buna görə də məsələ feminizm prizmasından çıxaraq, gender prizmasına – yəni insan faktoruna keçid etdi. Beləliklə də, artıq kişi və qadın öz-dəsti xətti ilə əsərlər yazmaqla məşğul oldu ki, bu da Qərb ədəbiyyatında qadın nəsrinin formalaşmasına güclü təkan verdi. Problemlərin demokratik müstəviyə keçdiyi mərhələdən sonra isə üçüncü cinsin problemi ortaya çıxır ki, bu da Queer ədəbiyyatının yaranmasına, gender identikliyi və fərqliliyi baxımından ikili standartların qəbul edilməməsinə, qeyri-ənənəvi gender normalarının bədii ədəbiyyatda təsvirinə səbəb olur.

Azərbaycan ədəbiyyatında isə mənzərə bir qədər fərqlidir. Dastanlarda yaşmaqlı-yaşmaqsız at belində, ov səhnələrində, döyüşlərdə təmsil edilən Azərbaycan qadını növbəti dövrün yazılı ədəbiyyat nümunələrində kölə, qul, bir saraydan digər saraya satılan qadındır. İngilis ədəbiyyatında da, bənzər vəziyyət "Kenterberi nağılları", "Orunko" və s. əsərlərində görürük. Daha sonra ədəbiyyatda xəyali qadın obrazlarının vəsfi yer alır ki, təxminən, eyni dövrlərdə həm ingilis ədəbiyyatında, həm də Azərbaycan ədəbiyyatında bu nüansları görə bilirik. XIX əsr Britaniya qadın yazıçıları cəmiyyətin qınağından qorxaraq kişi psevdonimləri ilə yazırdı, Azərbaycanda isə Xurşidbanu Natəvan, Qönçəbəyim, Ağabəyim Ağa və s. kimi yazıçılar həm qadın ədəbi

məclisləri təşkil edirdi, həm də yaradıcılıqla məşğul idi. Lakin Azərbaycan mühitindəki şərtlər qərb mühitindəki şərtlərlə eyni deyildi. Çünki din, şəriət məsələləri önəm kəsb edirdi. Qərb ədəbiyyatında qadının maariflənməsinə, azadlığına çağırış edən feministlər daha çox qadınlar idisə, Azərbaycan ədəbiyyatında M.F.Axunzadə, M.Ş.Vazeh, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, C.Cabbarlı və s. kimi kişi yazıçılar idi. Lakin Azərbaycan qadını Britaniya qadınından təxminən on il əvvəl səsvermə hüququ qazanmışdısa da, bədii əsərlərdən görürük ki, qadının problemi həll olunmamış olaraq qalırdı, çünki iqtisadi, psixoloji azadlıq hələ də təmin edilməmişdi. C.Cabbarlının yaradıcılığı, xüsusilə, "Sevil" əsəri Azərbaycanda qadının dirçəliş simvolu, həyat üçün özünü yenidən kəşf edə bilmə modeli, iqtisadi azadlıq yolu idi. Bundan sonra isə, Azərbaycanda qadın nəsri sürətlə inkişaf etməyə başladı. Müasir dövr ədəbiyyatında qadının sosial, iqtisadi, psixoloji və cinsi azadlığının təsvirini görmək mümkündür.

Təhlillərimizi ümumiləşdirərək qənaətlərimizi aşağıdakı kimi təqdim edə bilərik:

–Gender identikliyi, ilk növbədə, sosial mühitdə, mədəni sferada öz əksini tapsa da, feminizm nəzəriyyələri, qadın hərəkatları qadın dili, qadın ədəbiyyatının formalaşmasına təkan olmuşdur. S.Bouvar, E.Şoulter, V.Vulf, S.Gilbert, S.Qubarun yaradıcılığından aydın olur ki, müstəqil feminist fəlsəfə, feminist ədəbi tənqid formalaşdı, Feminist ədəbiyyat çiçəklənməyə başladı və qadın yazıçılar yeni qadınsayağı dil, üslub formalaşdırdı.

– A.Behnin ədəbi fəaliyyəti və şəxsiyyəti feminist tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilir. O, müasiri olduğu dövrdə qadının statusu ilə bağlı tənqidi fikirləri ilə seçilir, qadın şəxsiyyətinin tanınması zərurətini qeyd edirdi. M.Uolstonkraf isə qadın azadlığına gedən yolun məhz təhsildən keçdiyini vurğulayırdı.

– Qadın cəsarəti, qadın azadfikirliliyi ingilis ədəbiyyatındakı qadın yazıçılardan daha erkən dövrdə, XII əsrdə Azərbaycan ədəbiyyatında M.Gəncəvinin yaradıcılığı müşahidə olunur. U.Şekspiri məşhurlaşdıran ingilis cəmiyyətinin o dövrdə qadına eyni rəğbətlə yanaşılmasının mümkün olmadığından şikayət edən V.Vulfun gileyi ilə müqayisədə, Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi ilə eyni dövrdə yaşayıb-yaradan Məhsəti Gəncəvi var idi.

–1840-1880-ci illəri əhatə edən “Feminin” mərhələdə Ş.Bronte, E.Bronte, C.Eliot, E.Qaskel kimi qadın yazıçıların cəmiyyətin qınağından ehtiyat edərək kişi təxəllüsləri ilə yazdıqları, kişi üslublarını imitasiya edərək kişi dəyərlərinə sadiq qalmağa çalışırdılar və qadınların cəmiyyətdəki mövqeyi ilə bağlı fikir mübadiləsində iştirak etmirdilər.

– X.Şirvani, İ.Nəsimi, M.P.Vaqif yaradıcılığında qadının ilahi varlıq kimi əksi, gözəlliyi və cazibərdarlığı bədii təsvirini tapırdı. M.F.Axundzadənin yaradıcılığında təsvirini tapan qadın obrazları və onları əhatə edən problemlər reallıqla daha çox səsləşir, dövrün gerçəkliyi olan savadsız mollaların şəriət qaydalarından öz mənafelərinə uyğun istifadə edib qızları və qadınları cəhalətə məhkum etmələri kəskin tənqid atəşinə tutulur.

– XIX əsrdə Azərbaycanda X.Natəvan, Qönçəbəyim, Gövhər xanım, Qəmər Şeyda və s. kimi intellektual qadınlar Qərbdə olduğu kimi qadın hərəkatları təşkil edib, yürüşlər, aksiyalar keçirə bilməsə də, onların rəhbərlik etdikləri ədəbi məclislər qadın yaradıcılığının təbliği, qadın azadlığı, aydınlanması və maariflənməsi yolunda önəmli addımlar idi.

–“Feminist” dövrü adlandırılan 1880-1920-ci illərdə ingilis ədəbiyyatında qadın yazıçıların yaradıcılığı ilə yeni bir istiqamətin formalaşdığı müşahidə olunur. Bu mərhələdə qadın yazıçılar kişilər tərəfindən təsvir edilən ənənəvi qadın obrazlarına, bütövlükdə ədəbi kanona qarşı çıxsalar da, alternativ yanaşma təqdim edə bilmirdilər.

– Gender tədqiqatları baxımından çox dəyərli olan C.Məmmədquluzadə yaradıcılığında qadınların maariflənməsi, təhsilə çağırış, erkən evliliyə və qadın istismarına etiraz, siğə və çoxarvadlılığın tənqid olunması məsələləri önə çıxır.

– “Female” dövrü” adlandırılan 1920-ci ildə sonrakı mərhələdə ingilis ədəbiyyatında qadınlar artıq kişilərlə mübarizə aparmırdı, özlərini kəşf edərək yaradıcılıqla məşğul idi. Beləliklə də, kişi ədəbiyyatından ayrı bir istiqamət, yəni “qadın ədəbiyyatı” yarandı.

– V.Vulf yaradıcılığı qadın identikliyi axtarışı, ziddiyyətli özünüdərk səyi ilə xarakterizə olunur. C.Cabbarlının əsərlərində isə çadranı atmış, təhsil almış qadının tam azadlığının iqtisadi azadlıq olduğu vurğulanır. Növbəti dövr ədəbiyyatında isə qadının fiziki, psixoloji, iqtisadi azadlığı ilə yanaşı emosional azadlığının vacibliyi

ideyası meydana çıxır.

– Ədəbiyyatda gender tədqiqatlarının inkişafı, genderin sosial, iqtisadi, psixoloji azadlığı qadın problemlərinin həlli olaraq görülürdüsə, XXI əsrdə artıq "Queer ədəbiyyatı" olaraq, üçüncü cinsin problemi bədii ədəbiyyata yol açır.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları öz əksini müəllifin dərc olunmuş elmi əsərlərində tapmışıdır:**


1. Bədii mətn genderin sosioloji və psixoloji vəziyyətinin reprezentasiyası kimi // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi konfrans, – Bakı: Elm və təhsil, – 30 noyabr, – 2020, – s.47-49.
2. Gender Representation in Postcolonial Literature // – Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2020. №1 (18), – p.67-73.
3. Gender Aspects of Culture // Akdeniz Zirvesi 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Girne: UBAK Publications, – 17-18 Ekim, – 2020, – p.97-104.
4. Feminist ədəbi tənqid // "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" adlı Beynəlxalq elmi konfransı, – Bakı: Elm və təhsil, – dekabr, – 2020, – s.150-152.
5. Bədii ədəbiyyatda feminizmin sosial-siyasi ideologiyası // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №12, – s.230-239.
6. Gender sosiallaşması gender identikliyinin dərk olunma prosesi kimi // – Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2020. №2(19), – s.179-187.
7. Bədii ədəbiyyatda qadın və kişi üslublarının identikliyi və fərqi // – Bakı: Gənc Tədqiqatçı elmi-praktiki jurnal, – 2021. c. 7, №1, – s.195-201.
8. İngilis ədəbiyyatında feminist utopiyasının başlanğıcı // – Bakı: Filologiya və Sənətşünaslıq, – 2021. №1, – s.171-177.
9. Nizami yaradıcılığında gender məsələləri // Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər

konfransının proqram və materialları, – Bakı: Elm və təhsil, – 7 oktyabr, – 2021, – s.136-140.
10. George Eliotun əsərlərində qadın özünüdərk məsələləri // Bursa 1st International Scientific Research Congress, – Bursa: Academic Sharing Platform Co. Publication, – December 18-19, – 2021, – s.77-84.
11. Emili Brontenin "Uğuldayan aşırım" romanında gender məsələləri // – Bakı: "Risalə" elmi araşdırmalar jurnalı, – 2021. №2 (21), – s.28-35.
12. Tomas Hardinin əsərlərində "Yeni Qadın" və Feminist perspektivlər // 3rd International Congress of Khazar Scientific research, – Baku: IKSAD Publication, Khazar University, – January 7-9, – 2022, – s.553-558.
13. Ceyn Austenin "Qürur və Qərəz" əsərində gender məsələləri // Gənc Tədqiqatçıların V Respublika Elmi-praktik konfransı, – Bakı: Azərbaycan Universiteti, – 15 aprel, – 2022, – s.23-25
14. Virciniya Vulfun əsərlərində gender tədqiqatlarına modernist yanaşma // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. № 14, – s.294-303.
15. Bədii ədəbiyyatda müharibə mövzusunun genderoloji xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və Ədəbiyyat, – 2022. c. 12, №1, – s.46-55.
16. Azərbaycan ədəbi-mədəni mühitində gender ideologiyası // "Xan qızı Natəvan və Azərbaycan qadınının ədəbi-mədəni mübarizələri" adlı Beynəlxalq Konfrans, – Bakı: Elm və təhsil, – 5-6 iyul, – 2022, – s.191-198.
17. XIX əsr Azərbaycan ədəbiyyatında real qadın surətlərinin bədii ədəbiyyatda reprezentasiyası // – "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" Beynəlxalq Elmi Konfrans, – Bakı: Elm, Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – 6-7 mart, – 2023, – s.147-155.
18. Müasir dövrdə feminist utopiyası // World Women Conference-V International Conference, – Baku: IKSAD Yayınevi, – March 7-8, – 2023, – s.207-217.
19. Early gender representations in English literature // – Baku: ANCIENT LAND International online scientific journal, –

2023. vol.5, Issue: 3, – p.29-34.
20. Linqvokulturologiya və gender məsələləri. Dərs vəsaiti. / – Bakı: Zəngəzurda, – 2023. – 76 s.
21. XIX əsr ingilisdilli feminist utopiyasının gender xüsusiyyətləri // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. № 2 (122), – s.168-171.
22. Din və gender məsələlərinin bədii ədəbiyyatda əksi // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2023. c.16, №3 (55), – s.153-160.
23. Linguacultural Analysis of Gender in Fiction // – İstanbul: Türk Dünyası Çalışmaları, Paradigma Akademi, – aralık, – 2023. – p.163-181.
24. Investigation of Gender Identity in the Literary Works of Prominent Medieval Azerbaijani Authors // – Tashkent: Golden Scripts – Oltın Bıtıglar, – 2023. vol. 4, – p.97-108.
25. Early Assessment of gender concerns in Azerbaijani literary context // – Norway: Norwegian Journal of development of the International Science, – 2024. № 126, – p.89-93.
26. Bədii tərcümədə gender identikliyin tədqiqi (İngilis və Azərbaycan ədəbiyyatı əsasında) // "Tərcüməşünaslığın müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları, – Naxçıvan: Naxçıvan Universiteti nəşriyyatı, – 30 yanvar, – 2024, – s. 64-69.
27. Spekulyativ ədəbiyyatda gender məsələləri: Anjela Karter yaradıcılığı // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri (humanitar və ictimai elmlər), – 2024. №1, – s.39-44.
28. Jean Rhysin "Wide Sargassa Sea" əsərində gender identikliyi // XVI Respublika Elmi Qaynaqlar konfransı, Elmi İş, Beynəlxalq Elmi jurnal, – Bakı: Zəngəzurda, – 12 mart, – 2024, – s.13-17.
29. Exploring Gender Concerns in Literature: Examining the Pioneering Azerbaijani Writer's Perspectives on Gender in Comparison to Western Authors // – Cuba: Universidad Y Sociedad, "Repensar las publicaciones desde un nuevo saber", – 2024. vol.16, num.2, – p.331-338.
30. Perspectives on Gender Identity in Modern British and

Azerbaijani Literature // – Riga: Baltic Journal of Legal and Social Sciences (Baltijas Žurnāls), – 2024. №1, – p.232-240.
31. Unique Standpoints of the Distinctive British Feminist Writers of the 20th Century. Regarding Gender Concerns // – Slovak Republic: Path of Science: International Electronic Scientific Journal (Traektoriâ Nauki), – 2024. vol.10, №3, – p.4007-4016.





56

Dissertasiyanın müdafiəsi ***07 noyabr 2024***-cü il tarixində saat $14^{00}$ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən BED 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.10.2024

Kağızın formatı:A5

Həcm: 85 054

Tiraj: 100